# POLİQLOT

№ 3(257) aprel 2024 Təsisçi: Azərbaycan Dillər Universiteti www.adu.edu.az

# “Heydər Əliyev və Milli Mədəniyyət Strategiyası”

## adlı tələbə-şagird elmi konfransı



Azərbaycan Dillər Universiteti elm və təhsil sahəsində möhtəşəm uğurlara imza atmaqla yanaşı, orta məktəb şagirdlərinin universitet həyatına hazırlanması və elmi bacarıqlarının artırılması, onların gələcəkdəki nailiyyətləri istiqamətində əsaslı layihələr həyata keçirir. Mayın 2-də ADU-da ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Heydər Əliyev və Milli Mədəniyyət Strategiyası” adlı tələbə-şagird elmi konfransının keçirilməsi də məhz bu məqsədə xidmət edirdi.

☞ səh. 4

### Kamal Abdullaya “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalı təqdim olunub

səh. 3

### ADU-nun professor-müəllim heyətinin uğurları

səh. 4

### Millət vəkili Sevinc Fətəliyeva: “Tələbəlik illərimi həmişə minnətdarlıq və səmimiyyətlə xatırlayıram”

səh. 5

### “Ədəbiyyat adamı” mükafatı təqdim olunub

səh. 6

# Təhsilin inkişafı naminə

## Azərbaycan Dillər Universitetindən möhtəşəm layihə



Hər il Azərbaycan Dillər Universitetindən (ADU) məzun olan yüzlərlə tələbə bu ali təhsil ocağının təqdirəlayiq təcrübəsini qazanaraq həyatın yeni mərhələsinə, işgüzar dünyaya qədəm qoyur. Lakin zaman ötdükcə illər öncə qazanılan bilik və bacarıqlar müasir təhsil sisteminin dinamik tələbləri ilə uyğun gəlmir. Bir çox təhsil işçilərinin elmi, texniki bilik və bacarıqlarının sürətli dəyişikliklərə cavab verə bilməməsi onların təhsil sistemində peşəkar uğurlarına da kölgə salır. Bu kimi hallar ümumilikdə təhsil sisteminin inkişafına ciddi maneə törədir.

Keçmiş məzunların müasir təhsil sisteminin yeniliklərinə, çağdaş tələblərə uyğunlaşması üçün ali təhsil ocağı ilə sıx əlaqələr vacib şərtlərdən biridir. Universitet məzunlarının qarşılaşdıqları çətinlikləri yerində öyrənmək, bu problemlərin həllinə yaxından köməklik göstərmək, öz növbəsində, məzunların işlərində müvəffəqiyyət qazanmalarına və onların gələcək peşəkar fəaliyyətlərində uğurlu olmalarına əhəmiyyətli dərəcədə kömək edə bilər...

Ölkəmizin təhsil sisteminə daim orijinal layihələrlə yeni töhfələr verən Azərbaycan Dillər Universiteti sadalanan bu çatışmazlığı həll etmək, universitet məzunlarının qarşılaşdığı çətinlik və ehtiyacların həllinə köməklik göstərmək istiqamətində də ilkə imza atıb. Aprel ayının 6-da universitetin professor-müəllim heyətinin bir qrup nümayəndəsinin Biləsuvar rayonuna ezam olunması bu məqsədə xidmət edirdi...

ADU-da təhsilini başa vurmuş məzunların qarşılaşdıqları çətinlikləri öyrənmək, bu problemlərin həll edilməsi üçün universitet əməkdaşlarının cənub bölgəsinə səfərinin ilk məkanı Biləsuvar rayon mərkəzindəki Heydər Əliyev parkı oldu. Parkda Ulu Öndərin heykəli ziyarət olundu, abidənin önünə gül dəstələri qoyuldu. Ümummilli Lider Heydər Əliyevin nurlu xatirəsi dərin ehtiramla yad edildi.

ADU əməkdaşlarının Biləsuvar Rayon İcra Hakimiyyətinin inzibati binasında baş tutan ilk görüşündə Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov qonaqları salamlayaraq onları burada görməkdən məmnun olduğunu bildirdi.

Səmimi qarşılanmaya görə təşəkkürünü bildirən ADU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Misgər Məmmədov səfərin məqsədindən danışaraq qeyd etdi ki, ADU təhsilin müxtəlif aspektlərində liderliyini davam etdirmək üçün yenilikçi proqramlar və metodologiyalar tətbiq etməkdə davamlı məşğul olur. Universitet tələbələrlə yanaşı, məzunlarını da müasir dövrün tələblərinə uyğunlaşdırmaq və onların müvəffəqiyyətini təmin etmək üçün daima yeni yollar arayır. Bu isə, öz növbəsində, universitetin təhsil sahəsində liderliyini möhkəmləndirməyə və innovativ təcrübələri təqdim etməyə kömək edir.

Davamı səhifə 7-də

# Yeni Kaledoniya Konqresinin nümayəndə heyəti ADU-da



Aprelin 17-də Azərbaycan Dillər Universitetində (ADU) Yeni Kaledoniya Konqresinin İnfrastruktur, Məkan Planlaması, Davamlı İnkişaf, Enerji, Nəqliyyat və Kommunikasiyalar üzrə Komitəsinin sədri Neysselin Omayranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

ADU-nun rektoru, akademik Kamal Abdulla qonaqları salamlayıb, onları universitetdə görməkdən məmnun olduğunu bildirib.

ADU-da fəaliyyət göstərən beynəlxalq dil və mədəniyyət mərkəzləri haqqında qonaqlara məlumat verən rektor universitetin son illər qazandığı uğurlarından danışıb.

Qeyd olunub ki, ADU-da tədris olunan xarici dillər yüksək hazırlıqlı, peşəkar müəllimlər tərəfindən tələbələrə tədris olunur:

"Bu gün Azərbaycan bütün dünyada siyasi, iqtisadi və mədəni əlaqələrin qurulması istiqamətində son dərəcə mühüm addımlar atır. Bu addımlar özünü elmi, mədəni, intellektual müstəvidə də göstərir.

İnanıram ki, Azərbaycanla sizin gözəl vətəniniz arasında mədəni, mənəvi, intellektual əlaqələr getdikcə artacaq. Biz sizin təhsil müəssisələrinizlə əməkdaşlıq etməyə hazırıq. Azərbaycana, dövlətimizə və onun həqiqətlərinə sizin sevginizi çox gözəl bilirik. Bunun üçün sizə dərin təşəkkürümü bildirirəm. Bir daha universitetimizə xoş gəlmisiniz! Ümid edirəm, səfər müddətində bizim həqiqətlərimiz və uğurlarımızla daha yaxından tanış olmaq imkanınız olacaq".

ADU-nun Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, Milli Məclisin deputatı Tamam Cəfərova Yeni Kaledoniyadan olan qonaqların universitetdə olmasının tarixi hadisə olduğunu vurğulayıb. Qeyd olunub ki, ölkələr arasında iqtisadi, siyasi, elmi, mədəni əlaqələrin qurulması vacib məsələlərdən biridir: "Keçən ilin oktyabr ayında Yeni Kaledoniyadan gələn nümayəndə heyəti Azərbaycan parlamentində oldular, millət vəkilləri ilə görüşdülər və onlara qarşı həyata keçirilən kolonizasiya siyasətinin ağır nəticələri haqqında geniş məlumat verdilər.

Qeyd etmək istəyirəm ki, kolonizasiyadan əziyyət çəkən xalqlara dəstək məqsədilə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Qoşulmama Hərəkatı çərçivəsində Bakı təşəbbüs qrupu yaradılıb. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Respublikası hər zaman bəşəriyyət üçün aktual olan məsələlərə xüsusi diqqət ayırır, xalqların üzləşdiyi ədalətsizliklərin aradan qaldırılması istiqamətində səmərəli iş aparır".

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov qonaqlara Qoşulmama hərəkatı haqqında məlumat verib. Qeyd olunub ki, cənab Prezident İlham Əliyev dünya miqyasında müstəmləkəçilik siyasətinə qarşı ən fəal mübarizə aparan liderlərdən biridir.

Bildirilib ki, Azərbaycanda aidiyyəti üzrə bütün dövlət qurumlarında dekolonizasiya prosesinə böyük dəstək göstərilir və bu istiqamətdə zəruri töhfələr verilir.

ADU-nun İnsan Resursları şöbəsinin müdiri Məmməd İsmayılov və Xarici dillər kafedrasının müdiri Nərgiz Seyidova səfərin əhəmiyyəti ilə bağlı fikirlərini bölüşüblər.

Görüş gələcək elmi, mədəni əməkdaşlığın qurulması və inkişaf etdirilməsi ətrafında aparılan müzakirələrlə davam edib.

# Kamal Abdulla Serbiyanın ölkəmizdəki səfiri ilə görüşüb

Aprelin 3-də Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla Serbiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Draqan Vladisavlyeviçlə görüşüb.

Qonağı rəhbərlik etdiyi ali təhsil ocağında görməkdən məmnun olduğunu deyən rektor bildirib ki, elmi, mədəni əlaqələrin daha möhkəm sütunlar üzərində qurulması hər iki ölkənin gələcək inkişafı üçün mühüm əhəmiyyət kəsb edir:



"Biz öz işimizlə elmi, mədəni əlaqələrin qurulmasında üzərimizə düşən bütün öhdəlikləri böyük məmnunluqla həyata keçirməliyik. Bu yaxınlarda bizim əməkdaşımız Serbiyada, Belqrad universitetində səfərdə olub. Səfər çox uğurlu alınıb. Qarşılıqlı elmi, mədəni əlaqələrin inkişafı baxımından mərkəzlər arasında kommunikasiyanın olması vacib məsələlərdən biridir. Bu mənada hər iki tərəf öz məmnuniyyətini və görülən işin faydalılığını önə çəkir.

Bu gün Azərbaycan və Serbiya hökumətləri və xalqları arasında səmimi bir münasibət var. Bu münasibət bizə daha çox əməkdaşlıq əlaqələrini qurmağa, inkişaf etdirməyə, öyrənməyə, ölkələrimizi dünyada daha çox təbliğ etməyə şərait yaradır. İnanıram ki, əlaqələrimiz bundan sonra da yüksələn xətlə inkişaf edəcəkdir".

Xoş sözlərə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən səfir ADU-nun son illər qazandığı uğurlardan danışıb.

Qeyd olunub ki, elmi əməkdaşlıq çərçivəsində hər iki ölkənin dil və mədəniyyət mərkəzlərinin fəaliyyət göstərməsi tərəfdaşlığın, dostluğun göstəricidir.

Görüş qarşılıqlı elmi əməkdaşlığın daha da inkişaf etdirilməsi ətrafında aparılan müzakirələrlə davam edib.

# İzmir İqtisadiyyat Universitetinin əməkdaşı ADU-nun qonağı olub

Aprelin 16-da İzmir İqtisadiyyat Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Hulya İncekara Azərbaycan Dillər Universitetinin qonağı olub.

ADU-nun rektoru, akademik Kamal Abdulla qonağı salamlayıb, onu universitetdə görməkdən məmnun olduğunu bildirib.

Qeyd olunub ki, ADU dünyanın bir çox xarici universitetləri ilə əlaqələrini uğurla inkişaf etdirir. Vurğulanıb ki, bugünkü görüşü İzmir İqtisadiyyat Universiteti ilə elmi əməkdaşlığın qurulması üçün yeni perspektivlərin ilk müjdəçisi hesab etmək olar.



Görüşdə qonağa ADU-da fəaliyyət göstərən beynəlxalq dil mərkəzlərinin fəaliyyəti ilə bağlı ətraflı məlumat verilib. Həmçinin ADU-nun bu yaxınlarda yenidən beynəlxalq QS reytinq cədvəlində "Dünya dilləri" təsnifatı üzrə 301-340-cı yer tutmasının səbəbləri və bu uğurun qarşılıqlı şəkildə inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Bildirilib ki, müəllim və tələbələrin təcrübə proqramlarına qoşulması, xarici dillərin yeni metodlarla tədrisinin qarşılıqlı şəkildə öyrənilməsi önəmli məsələdir.

Səmimi qarşılanmaya və xoş sözlərə görə təşəkkürünü bildirən qonaq ADU-nun uğurlarının yeni müstəvidə öyrənilməsinin vacibliyi haqqında danışıb.

Qeyd olunub ki, iki universitet arasında müəllim və tələbə mübadiləsinin aparılması imkanları mövcuddur.

Sonda gələcək elmi layihələrin birgə həyata keçirilməsi, təcrübə proqramlarının qarşılıqlı şəkildə tətbiq olunmasının mümkünlüyü ətrafında müzakirələr aparılıb.

# ADU yenidən QS reytinq cədvəlində

**QS 2024 sahələr üzrə dünya universitetlərinin reytinqi (QS World University Rankings by Subject 2024) açıqlanıb. Reytinqdə 104 məkandan 1559 ali təhsil müəssisəsi iştirak edib. Onlardan 64 ali təhsil müəssisəsinin iştirakı ilk dəfə qeydə alınıb.**

Bu il reytinqin qiymətləndirmə metodologiyasında 3 əsas indikator nəzərə alınıb: davamlılıq, məşğulluq nəticələri və beynəlxalq tədqiqat şəbəkəsi. Bura eyni zamanda akademik nüfuz, işəgötürənlər arasında nüfuz, istinadlar, H-indeks və beynəlxalq elmi əməkdaşlıq da daxildir.

Azərbaycan Dillər Universiteti ölkə üzrə ən yaxşı nəticə əldə edərək "Müasir dillər" üzrə dünyada ən yaxşı 301 – 340 universitetlər qrupuna daxil olub.

Qeyd edək ki, reytinqin tərtibi 17,5 milyon elmi məqalənin təhlili və 240 mindən çox təhsil işçisi və işəgötürənin ekspert rəyinə əsaslanır.

# Kamal Abdullaya "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı təqdim olunub



**Aprelin 30-da Elm və Təhsil Nazirliyində "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalının təqdim edilməsi mərasimi keçirilib.**

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev əvvəlcə qonaqları salamlayıb və yubiley medalına layiq görülən elm və təhsil işçilərini təbrik edib. Azərbaycan elmi və təhsilinə göstərdiyi davamlı dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını ifadə edib.

Mərasimdə Azərbaycan Dillər Universitetinin rektoru akademik, Xalq yazıçısı Kamal Abdulla "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif edilib.

Medalı elm və təhsil naziri Emin Əmrullayev təqdim edib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, bir qrup elm və təhsil işçisi ümummilli lider Heydər Əliyev irsinin tədqiqi və təbliği, azərbaycançılıq ideyasının həyata keçirilməsi, ölkənin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafında, həmçinin dövlət idarəçiliyində və ictimai-siyasi sahədə xidmətlərinə görə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.

Xalq yazıçısı, akademik Kamal Abdullanı bu əlamətdar hadisə münasibəti ilə təbrik edir, ona möhkəm cansağlığı, işlərində müvəffəqiyyətlər, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!

# Muxtar İmanov "Heydər Əliyevin 100 illiyi (1923-2023)" medalına layiq görülüb



AMEA Folklor İnstitutunun direktoru, ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, akademik Muxtar Kazımoğlu-İmanov Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 fevral tarixli 4289 nömrəli Sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunub.

Mükafatı akademikə martın 27-də Azərbaycan Milli Elmlər Akademiyasının Əsas binasının Dairəvi zalında Elm Günü münasibətilə "Elm Günü və Günün elmi: humanitar tədqiqatlar və süni intellekt" mövzusunda keçirilən tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli təqdim edib.

Akademik Muxtar İmanovu təltif münasibəti ilə təbrik edir, işlərində müvəffəqiyyətlər, yeni uğurlar diləyirik!

# "Heydər Əliyev və Hüquqi dövlət" olimpiadası qaliblərinin mükafatlandırılma mərasimi



Aprelin 29-da Azərbaycan Dillər Universitetində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr etdiyi "Heydər Əliyev və Hüquqi dövlət" adlı hüquq olimpiadasının qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Tədbirdə ADU-nun rəhbərliyi, Konstitusiya Məhkəməsinin nümayəndələri, universitetin struktur rəhbərləri və tələbələr iştirak ediblər.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla qonaqları salamlayaraq tədbirin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, Azərbaycan gəncliyi öz hüquq və vəzifələrini dərindən bilməli, Vətəninə, xalqına ləyaqətlə xidmət etməlidir: "Bu gün Azərbaycan gəncliyi öz təhsilində, öz işində son dərəcə ləyaqətlə və məsuliyyətlə çalışmalı, şəhidlərimizin qanı, canı hesabına bütöv olan Azərbaycanı daha çox sevməli və onun inkişafına təkan olmalıdırlar. Hər birimiz öz bilik və bacarığımızla üzərimizə düşən öhdəlikləri yüksək peşəkarlıqla yerinə yetirməliyik".

ADU-nun Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsi nəzdində Beynəlxalq münasibətlər kafedrasının müdiri, professor Aida Yusifzadə olimpiada haqqında məlumat verib. Qeyd olunub ki, tələbələr bu olimpiadaya böyük maraq göstəriblər və nəticələr kifayət qədər uğurludur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının Konstitusiya hüququ şöbəsinin müdiri, III dərəcəli dövlət qulluğu müşaviri Dürdanə Məmmədova Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin olimpiada iştirakçılarına müraciətini oxuyub. Bildirilib ki, qurum tərəfindən gənclər arasında konstitusion dəyərlərin təbliği məqsədi ilə ənənəvi olaraq olimpiadalar təşkil edilir, maarifləndirmə işləri aparılır.

Sonra mükafatlandırma mərasimi baş tutub. Olimpiada qaliblərinə diplom və xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Heydər Əliyev və Hüquqi dövlət" adlı hüquq olimpiadasında birinci yerə Təhsil-1 fakültəsi, ikinci yerə Tərcümə fakültəsi, üçüncü yerə Filologiya fakültəsinin nəzdində Beynəlxalq jurnalistika kafedrası layiq görülüb.

## Konstitusiya Məhkəməsinin sədrinin olimpiada iştirakçılarına müraciəti

"Heydər Əliyev və Hüquqi dövlət" mövzusunda təşkil olunmuş hüquq olimpiadasının iştirakçılarını salamlayır, olimpiadanın yüksək səviyyədə keçirilməsi münasibəti ilə sizi təbrik edirəm.

Ulu Öndər Heydər Əliyevin birbaşa rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində ilk milli Konstitusiyamız qəbul edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" 28 dekabr 2006-cı il tarixli və 27 dekabr 2011-ci il tarixli "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" sərəncamları ilə əlaqədar hüquq olimpiadalarının keçirilməsi, ənənəvi olaraq ali və orta təhsil müəssisələrinin tələbələri və şagirdləri arasında məzmunlu və əhatəli şəkildə təşkil olunmuşdur.

Ölkəmizdə aparılan bütün islahatlar istər siyasi-iqtisadi, istər hüquqi islahatların həyata keçirilməsi Azərbaycan dövləti qarşısında duran mühüm vəzifələrdən biri olan qanunların aliliyini, insan və vətəndaş hüquqlarının və əsas azadlıqlarının təmin edilməsi məqsədini güdür.

Davamlı və dinamik inkişaf, demokratik nailiyyətlərin əldə olunmasına yönəlmiş məqsədyönlü fəaliyyət demokratik-hüquqi islahatların da davam edilməsini zərurətə çevirir.

Konstitusiya Məhkəməsi tərəfindən bu il "Heydər Əliyev və Hüquqi dövlət" mövzusunda hüquq olimpiadasının keçirilməsi Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuşdur.

"Heydər Əliyev və Hüquqi dövlət" mövzusunda keçirilən hüquq olimpiadasının məqsədi gənclərin Konstitusiyada təsbit olunmuş əsas müddəaların, xüsusilə insan hüquq və azadlıqların təmin edilməsinə aid maddələrin daha da dərindən öyrənilməsi, konstitusiya nəzarətinin mahiyyəti, prinsipləri barədə məlumatlandırılması, ölkəmizin qanunvericilik aktları haqqında biliklərinin artırılması və onların dövlət quruculuğu prosesində daha da fəal iştirak etmələrindən ibarətdir.

Ümid edirəm ki, bugünkü tədbir gələcək görüşlərin daha da səmimi və qarşılıqlı anlaşma şəraitində keçirilməsi üçün çox böyük əhəmiyyət kəsb edəcəkdir.

Hüquq olimpiadasının iştirakçılarına müvəffəqiyyətlər və uğurlar arzu edirəm.

# “Heydər Əliyev və Milli Mədəniyyət Strategiyası” adlı tələbə-şagird elmi konfransı

Azərbaycan Dillər Universiteti elm və təhsil sahəsində möhtəşəm uğurlara imza atmaqla yanaşı, orta məktəb şagirdlərinin universitet həyatına hazırlanması və elmi bacarıqlarının artırılması, onların gələcəkdəki nailiyyətləri istiqamətində əsaslı layihələr həyata keçirir. Mayın 2-də ADU-da ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Heydər Əliyev və Milli Mədəniyyət Strategiyası” adlı tələbə-şagird elmi konfransının keçirilməsi də məhz bu məqsədə xidmət edirdi.



Tədbirdən öncə ulu öndər Heydər Əliyevin xatirəsi ehtiramla anılıb və büstü önünə gül dəstələri düzülüb.

Konfransın açılış mərasimində Azərbaycan Dillər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Jalə Qəribova tədbir iştirakçılarını və qonaqları ADU-nun rektoru, akademik Kamal Abdullanın adından salamlayaraq, konfransın əhəmiyyətindən danışıb. Qeyd edib ki, hər il universitetdə keçirilən tələbə-şagird konfransına maraq ildən-ilə artmaqdadır. Konfransın ideya müəllifi olan ADU-nun rektoru, akademik Kamal Abdulla şagirdlərin universitet həyatına hazırlanmasına və elmi bacarıqlarının artırılmasına böyük önəm verir. Konfrans həmçinin Azərbaycan təhsilini daha da inkişaf etdirmək, gəncləri elmə istiqamətləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

**Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Təhsil Kompleksinin direktoru Aqşin Bağırov** dəvətə görə universitet rəhbərliyinə öz təşəkkürünü bildirib, konfransla bağlı fikirlərini bölüşüb. Qeyd olunub ki, ulu öndər Heydər Əliyevə həsr olunan elmi konfrans şagirdlər üçün yeni elmi biliklərin və təcrübələrin öyrənilməsi üçün olduqca vacib tədbirdir. Gələcəkdə şagird və tələbələr tərəfindən elmi işlərin görülməsi, tədqiqat işlərinin aparılması baxımından konfransın xidmətləri böyükdür.

**ADU-nun Təhsil-1 fakültəsinin dekanı, professor Fikrət Cahangirov** tədbir iştirakçılarına və qonaqlara elmi konfransın gündəliyi haqqında məlumat verib. Bildirilib ki, elmi konfrans ADU rəhbərliyi tərəfindən diqqətlə izlənilir və hər bir şagirdə, tələbəyə elmi bacarıqlarını inkişaf etdirmək üçün şərait yaradılıb.

Daha sonra ADU-nun, Filologiya fakültəsinin tələbəsi Səhər Məhəmmədpur “Müasir Azərbaycanda multikulturalizm siyasətinin inkişafında Heydər Əliyevin rolu”, Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksinin şagirdi Gülnur Şahbazlı “Fransız ədəbiyyatında azərbaycanlı, Azərbaycan ədəbiyyatında fransız portreti”, Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəbin şagirdi Məltəm Mayılova “Heydər Əliyev və ana dilimiz” adlı tezislərlə çıxış ediblər.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib. Ümumilikdə 470-ə yaxın tələbə-şagirdin iştirak etdiyi plenar iclaslar 4 əsas – Filologiya, Pedaqogika, psixologiya, Siyasi elmlər, Tarix, fəlsəfə bölmələri ilə fəaliyyət göstərib. Hər bölmə iştirakçı sayı və verilən tezislərin məzmununa uyğun olaraq yarımbölmələrə bölünüb.

Həmin gün “Heydər Əliyev və Milli Mədəniyyət Strategiyası” tələbə-şagird elmi konfransının təntənəli bağlanış mərasimi olub.

Tədbirdə çıxış edən **Azərbaycan Dillər Unuversitetinin rektoru, akademik Kamal Abdulla** konfransın əhəmiyyətini vurğulayaraq bildirib ki, hər il ADU-da keçirilən tələbə-şagird elmi konfransı tələbə və şagirdlərin elmi əməkdaşlığını inkişaf etdirmək üçün bir birləşmə məkanına çevrilib. Şagirdlərin konfransda iştirakı onların gələcək fəaliyyətləri üçün çox böyük fayda gətirə bilər. Onların ali təhsil ocağında tələbə-müəllim heyəti ilə görüşü, aldıqları təcrübə yeni perspektivlər vəd edir. Bütün bunlar şagirdlərin təhsilində, onların universitetə hazırlaşmasında mühüm rol oynayır.

Daha sonra çıxışçılar konfransın gələcək istiqamətləri və yeni perspektivləri haqqında fikirlərini bölüşüblər. Konfrans iştirakçılarına sertifikatlar təqdim olunub.

Tədbirdən sonra konfrans iştirakçıları ilə görüşüb həmsöhbət olduq. Konfransın gedişindən məmnunluqlarını ifadə edən şagirdlər təəssüratlarını bölüşdülər:

**Gülnur Şahbazlı, Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Təhsil Kompleksinin 9-cu sinif şagirdi** söhbət zamanı bildirdi ki, o, keçən il Azərbaycan Dillər Universitetində keçirilən tələbə-şagird elmi konfransında da iştirak edib: “Həmin vaxt keçirdiyim hisslər, aldığım təəssürat çox möhtəşəm idi. O hissləri bir daha yaşamaq üçün builki konfransa qatılmağı çox istəyirdim. Xoşbəxtlikdən, yenidən belə möhtəşəm tədbirdə iştirak etmək qismətim oldu. İndi burada olmaqdan son dərəcə məmnunam. Budəfəki konfrans həm tələbələr, həm də şagirdlər üçün çox faydalı oldu. Konfrans zamanı bir çox yeniliklərlə tanış olduq. Bütün bunlar biz şagirdlər üçün böyük təcrübədir və gələcək inkişafımıza kömək edir. Mən konfransda iştirak etdiyimə görə ikinci sertifikatımı aldım, əlavə olaraq hədiyyələrimiz də var”.

**Nuray Zeynallı, Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Təhsil Kompleksinin 9-cu sinif şagirdi:** “Belə möhtəşəm konfransda iştirak etdiyimə görə, ilk öncə, universitet rəhbərliyinə, bütün təşkilatçılara dərin təşəkkürümü bildirmək istəyirəm. Təəssüratlarım çox zəngindir. Burada universitetin rektoru, akademik Kamal Abdulla, respublikamızın tanınmış ziyalıları ilə tanış olduq. Universitetin tələbələri, müəllimləri ilə əlaqələrimiz yarandı. Bütövlükdə konfransın gedişi çox zəngin və maraqlı oldu. Düşünürəm ki, burada aldığım təcrübəni, xoş təəssüratlarımı heç vaxt unutmayacağam”.

**Məltəm Mayılova, Yusif Mirzəyev adına 44 saylı orta məktəbin 5 “a” sinif şagirdi:** “İlk olaraq, qeyd edim ki, Azərbaycan Dillər Universitetini, buradakı şəraiti çox bəyəndim. Gələcəkdə bu universitetdə təhsil alıb, Günay müəllimə kimi alman dili müəlliməsi olmaq istəyirəm. Çox istərdim ki, illər tez keçsin və mən burada təhsil alım. İndidən özümü buranın tələbəsi kimi hiss edirəm. Alman dilini bu ildən keçməyimizə baxmayaraq, həvəslə öyrənirəm. Konfransın açılışında “Heydər Əliyev və ana dilimiz” adlı tezislə çıxış etdim. Burada olmaqdan çox məmnunam.

**Zəhra Faas, Yusif Mirzəyev adına 44 saylı orta məktəbin 6-cı sinif şagirdi:** “Bu gün ömrümdə ilk dəfə idi universitetə qədəm qoyurdum. Azərbaycan Dillər Universitetini çox bəyəndim. Universitetlə tanışlıq, konfransda iştirakım həyatımın ən yaddaqalan məqamlarından olacaq. Bu tədbirdə iştirak etməyimin mənə çox faydası oldu”.

**Zəhra Dünyamalıyeva, Yusif Mirzəyev adına 44 saylı orta məktəbin 7 “c” sinif şagirdi:** “Bu gün Azərbaycan Dillər Universitetində çox gözəl və mənalı bir gün keçirdiyimdən çox məmnunam. Bu möhtəşəm tədbiri heç vaxt unutmayacağam. Konfransdan çox faydalandım, özümə inamım artdı. Gələcəkdə də belə konfranslarda iştirak etmək istərdim”.

**Gülnar Qarayeva, Yusif Mirzəyev adına 44 saylı orta məktəbin alman dili müəllimi:** “İlk öncə universitet rəhbərliyinə təşəkkür edirəm ki, bizim məktəbi belə təntənəli konfransa dəvət ediblər. Yusif Mirzəyev adına 44 saylı orta məktəb konfransda 12 nəfər şagirdlə iştirak edib. Şagirdlərim bu möhtəşəm tədbirdə iştirak etməkdən sevinirlər. Valideynlərimiz də övladlarının universitet həyatı ilə tanış olmalarından çox məmnundurlar. Məktəbimizdə alman dili tədrisi yüksək səviyyədə keçirilir. Şagirdlərin bu dilə böyük marağı var. Şəxsən mən artıq üçüncü ildir ki, Azərbaycan Dillər Universitetində keçirlən tələbə-şagird elmi konfransında iştirak edirəm. Təcrübəmdən bilirəm ki, belə tədbirlərin şagirdlərin təhsilinə böyük köməyi olur”.

# ADU-nun professor-müəllim heyətinin uğurları

## “AD SCİENTİFİC INDEX-2024” məlumat bazasında

Dünyanın nüfuzlu 10 elmi informasiyanın qiymətləndirmə mərkəzindən biri olan “AD Scientific Index” təşkilatı dünya alimlərinin, ölkələrin və elmi müəssisələrin reytinqini açıqlayıb. Bu reytinq son altı ilin məcmu təhlili hesabına müəyyənləşdirilir. Universitet, elmi-tədqiqat institutları və elmi jurnalların reytinq sıralanmasını tərtib edən beynəlxalq sistemlərdən fərqli olaraq, “AD Scientific Index” tədqiqatçıların elmi fəaliyyətini, elmi məhsuldarlığını və aldıqları nəticələrin elmi dəyərini xüsusi metodika ilə müəyyənləşdirir.

Dünya alimlərinin reytinq sıralamasının tərtibində ölkə, universitet və sahələr üzrə qiymətli elmi məqalələrin dərc edilməsində alimlərin məhsuldarlığını sadalayan “AD Scientific Index” öz işini 256 filial, 220 ölkə və 10 bölgədə həyata keçirir. Bu kontekstdə kənd təsərrüfatı və meşəçilik, incəsənət, dizayn və memarlıq, biznes və idarəetmə, iqtisadiyyat və ekonometrika, təhsil, mühəndislik və texnologiya, tarix, fəlsəfə, ilahiyyat, hüquq kimi ümumilikdə 12 sahədə 1605000 akademik tədqiqatçı və 23 min 227 sayda universiteti əhatə edir və (Afrika, Asiya, Avropa, Şimali Amerika, Okeaniya, Ərəb Liqası, o cümlədən EECA (Şərqi Avropa və Mərkəzi Asiya), BRICS (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika, Misir, Efiopiya, İran və Birləşmiş Ərəb Əmirlikləri), Latın Amerikası və COMESA (Şərqi və Cənubi Afrika)) dünya üzrə alimlərin reytinqini müəyyənləşdirir.

Elm adamlarının h-index, i10 indeksi və sitat sayı meyarlarına əsaslanaraq akademik müvəffəqiyyət təhlili aparan “AD Scientific Index” universitet, mövzu, ölkə, region və dünya kateqoriyalarında müvəffəqiyyət siyahılarını paylaşır. 2024-cü il üzrə təqdim edilmiş məlumatlara əsasən, “AD Scientific Index”in qeyd olunan meyarlar əsasında hazırlanmış dünya reytinqində (World Ranking) ölkəmiz 96-cı, region reytinqində (Region Ranking) isə 38-ci sırada qərarlaşıb.

Son altı ildə elm adamlarının məhsuldarlıq əmsallarını göstərən ilk və yeganə araşdırma olan “AD Scientific Index”in Dünya, Alim və Universitet Reytinqlərinin nəticələri Google Scholar-da açıq profillərinə əsasən, H-İndeksi, i10 İndeksi balları və sitat sayları kimi kriteryalar əsasında müəyyən edilən “AD Scientific Index-2024”də “Azərbaycan alim və universitetlər sıralaması 2024 ən yaxşı alimlər”in nəticələrini açıqlayıb.

Universitetimizin son altı ildə alimlərin fəaliyyətini sənədləşdirən mexanizm olan “AD Scientific Index” reytinqində H-Index balı 10 və daha yüksək olan sosial elmlər – dilçilik və ədəbiyyat sahəsi üzrə Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla ölkə üzrə birinci yerdə, dünya sıralamasında 600-cü yerdə və ADU-nun Xarici əlaqələr üzrə prorektoru, professor Jalə Qəribova sosial elmlər – dilçilik və ədəbiyyat sahəsi sırasında ölkə üzrə 3-cü, dünya üzrə 1.059-cu yeri tutur.

2024-cü ilin analitik məlumatlarına görə, professor-müəllim heyətimiz Azərbaycan üzrə qiymətləndirmədə sosial elmlər – dilçilik və ədəbiyyat fənni üzrə reytinqlərdə uğurla təmsil etmiş yüksək reytinqli ilk onluğun birinci və üçüncü yerləri universitetimizin nümayəndələri tutur ki, bu da yüksək nailiyyətdir.

Müəllimlərimizi təbrik edir və daha böyük uğurlar arzulayırıq!

# Millət vəkili Sevinc Fətəliyeva: “Tələbəlik illərimi həmişə minnətdarlıq və səmimiyyətlə xatırlayıram”

*“Poliqlot”un “Fəxri məzunlarımız” rubrikasının budəfəki qonağı tanınmış dövlət və siyasi xadim, Milli Məclisin üzvü Sevinc Fətəliyevadır. Müsahibimizin səmimi düşüncələri, tələbəlik illərinin kövrək duyğuları bizi xanım deputatın parlaq xatirələri ilə birləşdirir. Nostalji notlarla köklənən müsahibədə Sevinc Fətəliyevanın tələbələrimizə dəyərli tövsiyyələri də unudulmur...*

**– Sevinc xanım, siz tanınmış dövlət xadimi Həbib Fətəliyevin ailəsində anadan olmusunuz. Siz və qardaşınız – Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, UNESCO üzrə Milli Komissiyanın Baş katibi Seymur Fətəliyev Azərbaycan Dillər Universitetinin məzunudur. Sizin hər ikinizin bu ali təhsil ocağını seçməyiniz nə ilə bağlı olub? Dilləri öyrənməyə maraq haradan qaynaqlanır?**

– Düzgün qeyd etdiniz, bizim hər ikimiz Azərbaycan Dillər Universitetinin məzunlarıyıq. Sözsüz ki, hər bir fərdin formalaşması ailədən başlayır və ilk nümunəni oradan götürür, ailədaxili dəyərlər, dünyagörüşün formalaşması və qarşına qoyduğun məqsədlərə çatmaq inamının aşılanmasında ailənin rolu böyükdür. Hər ikimizin hələ məktəb illərindən dillərə marağım var idi və çox gözəl anlayırdıq ki, hədəflərimizə çatmaq üçün dil bilgiləri vacibdir. Mükəmməl və yüksək səviyyədə dil biliyinə sahiblənərək gələcəyin savadlı kadrlarından olmaq istəyi məhz bu təhsil ocağını seçməyimizi qərarlaşdırdı. Dil öyrənmək hər kəs üçün tamamilə fərqli dünyaların qapısını açır, digər xalqların mədəniyyəti, incəsənəti və həyat tərzi ilə yaxından tanış olmaq imkanı verir. İnsanın bir neçə dildə danışa bilməsi həm şəxsi, həm də professional həyatda qarşıya qoyduğu məqsədlərə çatmasına çox böyük kömək edir.

Mənim tələbəlik illərim tarixin ən məhsuldar dövrünə təsadüf edib. Həmin vaxt yeni müstəqil dövlət formalaşırdı, Azərbaycan bütün istiqamətlər üzrə böyük uğurlara imza atırdı, beynəlxalq əlaqələrimiz genişlənirdi. Məhz o illərdə ölkəmizin gələcəyi ilə bağlı strateji addımlar atılır, beynəlxalq münasibətlər istiqamətində Azərbaycanın hörmətini əks etdirən tarixi hadisələr baş verirdi. Həmin illərdə xarici şirkətlərin ölkəmizə axını, Azərbaycan Dillər Universiteti ilə yaranan yeni əməkdaşlıqlar, müsbət mənada cərəyan edən hadisələr maraq doğururdu. Belə bir dönəmdə, sözsüz ki, bizim ixtisasa və dil bilgisi olan gənclərə də ehtiyac duyulurdu ki, bu, bizim gələcəyimizə dair uğurlu planlar qurmağımıza imkan verdi.

**– Tələbəlik illərində ən böyük arzunuz nə olub və ona çatmaq üçün sizə ən çox motivasiya verən nə idi?**

– Tələbəlik dövrü xəyalların çiçəkləndiyi, məqsədlərin formalaşdığı və motivasiya mənbəyinə çevrildiyi vaxtdır. Hər birimiz təhsil yoluna başladığımızda öz ümidlərimizi və arzularımızı reallaşdırmaq üçün, sadəcə diplom almaqdan daha çox, daha böyük məqsədə nail olmağa çalışırıq. Xəyal quraraq, nəticədə özümüzə nail olmaq istədiyimiz bir gələcək obrazı yaradırıq.

Tələbəlik dövründə mənim arzularım müxtəlif məqsədlər, fikirlərə zəngin idi. Əvvəlcə universitetdə dərsləri dərindən anlamaq və dərk etmək arzusu ilə oxumağa başladım. Bilik dünyasına daxil olaraq məlumat dairəmi genişləndirmək arzusu, mənim əsas hərəkətverici qüvvəm idi. Daha sonra hədəfim karyera inkişafı ilə bağlı idi. Öz sahəmdə yeni pillələrə addım-addım çatdığımı təsəvvür edirdim. Bilik və bacarıqlarımı təcrübədə tətbiq etmək, elmlə məşğul olmaq əsas məqsədim idi.

**– Təhsil aldığınız müddətdə universitetin ictimai işlərində, tələbə təşkilatlarında fəaliyyətinizi necə dəyərləndirirsiniz? Bu fəaliyyət sizin karyera uğurlarınızı necə təmin etmişdir?**

– Tələbəlik illərində istər universitet daxilində, istərsə də universitet xaricində bütün tədbirlərdə fəal iştirak edirdim. İctimai işlərdə, müxtəlif layihələrdə iştirak etmək özünü inkişaf etdirmək və bir gənc olaraq cəmiyyətə fayda vermək üçün əla fürsətdir. Müxtəlif bilgilər əldə etmək, fərqli insanlarla işləmək, komanda ilə işləmək, qarşılıqlı fəaliyyət göstərmək bacarığına yiyələnməyə də kömək edir. Sözsüz ki, bu cür xüsusiyyətlərə malik olmaq, gələcəkdə karyerada üstünlük əldə etməyin vacib cəhətlərindəndir.

**– Tələbəlik illərinizdə müəllimlərinizlə olan münasibətiniz həyatınıza necə təsir göstərib?**

– Müəllimlik peşəsini seçməyimdə mənə dərs deyən müəllimlərimin böyük rolu olub. Mən də çalışmışam ki, öz müəllimim kimi qayğıkeş, şagirdlərinə dəyər verən bir pedaqoq olum. Mənim fikrimcə, yaxşı müəllim olmaq təkcə fənnini yaxşı bilib tədris etməklə bitmir. Müəllim şagirdlərinə sevgi, şəfqət və mərhəmət hissi ilə yanaşmalıdır. Bütün şagirdləri ilə səbrlə davranmalı, yeri gələrsə, onları dinləməli, yol göstərməli, problemlərini həll etməkdə yardımçı olmalıdır. Müəllim öz fənninə duyduğu sevgisi ilə şagirdlərinə ilham verərək, onlarda özünə əminlik hissini formalaşdırmalıdır.

**– Beləliklə, ADU-dan məzun oldunuz, həyatınızın yeni səhifəsi, fərqli dövrü başladı, millət vəkili kimi bir çox nailiyyətlərə çatdınız. Böyük hədəflərə aparan yolda universitet mühitinin, qazandığınız bilik və bacarıqların payı, rolu nədən ibarət oldu?**



– İstənilən hədəfə çatmaq həmin məqsədi müəyyənləşdirməklə başlayır. Müvəffəqiyyətli olmaq və öz potensialından maksimum səviyyədə istifadə etmək üçün hədəflərin qoyulması böyük əhəmiyyət kəsb edir. İnsanın inkişafına, şəxsiyyətin formalaşmasına ictimai mühit, təhsil mühiti, qazandığı bilik və bacarıqların rolu böyükdür. Eyni zamanda, etimadı doğrultmaq, əzmkarlıqla işləmək, məsuliyyət hissi, böyük hədəflərə aparan yolda vacib xüsusiyyətlərdir.

> **Sevinc Fətəliyeva: “Kamal Abdullanın tələbələri ilə səmimi münasibəti, yüksək intellekti və peşəkarlığı ilə hər bir tələbənin rəğbətini qazanmaqla bərabər, məhz seçdiyimiz ixtisası sevməyimizdə, elmə marağımızın artmasında xüsusi rolu olub”.**

**– Universitet həyatı daha çox nələri ilə yadda qaldı?**

– Mən tələbəlik illərimi həmişə minnətdarlıq və səmimiyyətlə xatırlayıram. Hər kəsin yaddaşında mütləq şəkildə özü üçün örnək və məktəb bildiyi müəllimlər xüsusi yer alır. Mənim üçün də şəxsiyyəti, yüksək insani keyfiyyətləri, müəllim vəzifəsinin imkan verdiyi qədər yox, ürəyinin imkan verdiyi qədər öz tələbələrinin yanında olacaq miqyasda böyüklüyü ilə seçilən müəllimlərim olub. Onların arasında birinci kursda bizə dilçilikdən dərs deyən Kamal Abdullanı xüsusilə vurğulamaq istərdim. Onun tələbələri ilə səmimi münasibəti, yüksək intellekti və peşəkarlığı ilə hər bir tələbənin rəğbətini qazanmaqla bərabər, məhz seçdiyimiz ixtisası sevməyimizdə, elmə marağımızın artmasında xüsusi rolu olub. Kamal müəllim bizi təkcə peşəkar kimi deyil, eyni zamanda azərbaycançılıq, dövlətçilik ideyaları ilə yaşayan gənclər, vətəndaşlar kimi tərbiyə edirdi. Pedaqoji prosesə səriştəli yanaşma müəllimdən dərin bilik və bacarıq tələb edir. Kamal müəllim məhz dərin biliyə malik bir istedadlı peşəkar kimi elmi-bədii yaradıcılıqla paralel işləməsi, dərslərə yaradıcı yanaşması bizim seçdiyimiz peşəyə marağımızı daha da artırırdı.

Eləcə də, müəllimlərimdən dərin ehtiramla Vilayət Hacıyevin adını çəkmək istərdim. Onun tərcüməçilik sahəsindəki yaradıcılığı isə əsl məktəbdir. Azərbaycan tərcüməçiliyinə, mədəniyyətinə böyük xidmətlər göstərən Vilayət müəllim tələbələrinə tərcüməçilik peşəsini sevdirməklə bərabər, alman ədəbiyyatının, alman fəlsəfi fikrinin görkəmli nümayəndələrini tanıdırdı. Sözsüz ki, peşəkar, səriştəli, yeni pedaqoji təfəkkürə malik müəllimlərin bizə dərs deməsi, eyni zamanda, onların tələbkarlığı bizim həyatımızda önəmli rol oynayıb, tələbəlik illərimizi daha dəyərli və yaddaqalan edib.

**– Məzun olduqdan bir müddət sonra Bakı Slavyan Universitetində pedaqoji fəaliyyətə başladınız, kafedra müdiri işlədiniz. Həmin vaxt sizi siyasi fəaliyyətə səsləyən, millət vəkili kimi hədəflərinizi formalaşdıran səbəblər nə idi?**

– Öncə deyim ki, ilk təhsilimə erkən yaşlarımda başlamışam. Dərs oxumağa, məktəbə getməyə çox böyük həvəsim olub. Təbii ki, ilk auditoriyaya daxil olmağımı unutmaq da çətindir. Çünki ilk tələbələrimlə aramızda elə böyük yaş fərqimiz olmayıb. Bəzən dekanlıqdan yoxlanış gələndə gedib deyirdilər ki, müəllim auditoriyada yoxdur. Gəlib yoxlayanda mənim müəllim olduğumu bilirdilər. Bu cür hallar bir neçə il davam edib. Həmişə çalışmışam ki, tələbələrlə dərs zamanı səmimi münasibət yaradım. İngilis dili kafedrasına rəhbərlik edirəm. Müəllim olmaq, elmlə məşğul olmaq mənim üçün çox maraqlıdır.

Siyasi mühit isə fərqlidir, həm beynəlxalq müstəvidə, həm ölkə daxilində təmsilçilik qürurverici, eyni zamanda, deputat kimi ölkənin mövqeyini müdafiə etmək məsuliyyəti var. Dil bilgilərindən istifadə edərək Azərbaycanın haqlı mövqeyini müdafiə etmək, müxtəlif görüşlərdə haqq səsimizi dünya ictimaiyyətinə çatdırmaq qarşıma qoyduğum məqsədin qayəsidir.

**– Bu gün Azərbaycan Dillər Universiteti yeni hədəflərə, uğurlara doğru inamla addımlamaqda davam edir. Məzunu olduğunuz ali təhsil ocağının uğurlarını necə qiymətləndirirsiniz?**

– Bu gün Azərbaycan bütün istiqamətlərdə sürətli inkişaf yolunda inamla irəliləyir. Təbii ki, hər bir inkişafın təməlində insan kapitalı, onun əsasında isə təhsil dayanır. Çünki hər bir dövlətin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Gələcək inkişafı təbii resurslar yox, bilik müəyyən edir. Azərbaycanda elmə, təhsilə, texnoloji inkişafa çox böyük əhəmiyyət verilir. Ölkəmizdə təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Məhz Azərbaycan Dillər Universitetinin də qarşıya qoyulan hədəflərə çatmaqda, layiqli vətəndaş, savadlı kadrların yetişdirilməsində böyük payı var. Bir məzun kimi universitetin ölkəmizin inkişafına verdiyi töhfəni görür, qürurlanır və davamlı olmasını diləyirəm.

**– Bəlkə də, bir vaxtlar dərindən hiss etmədiyiniz tələbəlik duyğusunu, zaman keçdikcə həsrətlə xatırlamağa başlamısınız. Məzun olmaq əslində universitetə heç vaxt olmadığı qədər daha çox bağlanmaqdır. Qəlbinizdə belə xoş hisslər, yenidən tələbə olmaq istəyi tez-tez baş qaldırır?**

– İnsanın həyatında elə xoş xatirəsi, işığı bir ömrə bərabər elə unudulmaz illəri, günləri olur ki, həyatının sonuna qədər bu şirin xatirələrin işığına sığınmaq, istisinə qızınmaq sənə bəs edir. Hər dövrün öz tələbi, öz diktəsi var. Həyat davam edir, insan fərd olaraq kamilləşir, hadisələrə münasibəti dəyişir. Mən düşünürəm ki, keçən dövrün nisgilini, həsrətini deyil, həmin illərə dəyər verərək, gələcəyin daha uğurlu olması naminə addımlar atılması önəm daşıyır.

**– ADU-nun tələbələrinə, uğur qazanmış bir məzun kimi, öz təcrübənizdən nələri paylaşmaq istərdiniz? Həm universitetimizin məzunları, həm də indiki tələbələr üçün motivasiya verici mesajınız varmı?**

– Özünüzə hədəflər qoymaq təhsil yolunda sizi irəli aparan hərəkətverici qüvvədir. Bu yolda böyük və ya kiçik olmasından asılı olmayaraq, hər bir məqsəd gələcəyimizə doğru atdığımız addımların bir parçasıdır. Bu yolda dayanmadan çalışmaq, biliklər əldə etmək, qazandığınız nailiyyətlərin davamlı olması üçün özünüzü güclü şəxs kimi inkişaf etdirməlisiniz. Unutmayın ki, gələcək uğurların qarantı bu gün atdığınız düzgün addımlardan asılıdır!

***Sadiq ZAMAN,***
***filologiya üzrə fəlsəfə doktoru***

# “Ədəbiyyat adamı” mükafatı təqdim olunub



Azərbaycan Dillər Universitetində Yaradıcılıq Fondunun dəstəyi ilə təşkil edilən “Ədəbiyyat adamı” müsabiqəsinin mükafatlandırılması və Yaradıcılıq fakültəsinin məzunlarına diplomların təltif olunması mərasimi keçirilib.

Mərasimdə çıxış edən Xalq yazıçısı, akademik Kamal Abdulla müsabiqənin qaliblərinin tam obyektiv şəkildə seçildiyini deyib: “Bildiyimiz kimi, may ayı Ulu Öndər Heydər Əliyevin doğum günü ilə əlamətdardır. Biz də fondumuz adından qərara gəldik ki, bu özəl gün münasibətilə ədəbiyyatçılarımız, ziyalılarımız üçün bir mükafat təsis edək və onu hər ilin may ayında təqdim edək. Artıq mükafatı beşinci ildir ki, təqdim edirik. Bəs niyə ədəbiyyat adamı? Fikrimcə, bu ad çox iddiasız, mütəvazi addır. Bizim aləmimizdə ədəbi fəaliyyətlə məşğul olan, zəhmətkeşliyi, peşəkarlığı əsas prinsip seçən, ədəbiyyatı həyat kimi, həyat tərzi kimi yaşayan, “ədəbi yaxşılıqlar edən”, ədəbiyyatın dostu olan şəxsdi. Biz bu gün Yaradıcılıq fakültəsinin dinləyicilərini də uğurlayırıq. Onlar bu gün diplomlarını alacaqlar. İnanıram ki, aldıqları təhsilin izlərini, rayihəsini onların gələcək yaradıcılıqlarında hiss edəcəyik. İnanıram ki, onlar həmişə ədəbiyyatın yanında, mətnin yanında olacaqlar. Sevinirəm ki, bizim məzunların içində artıq imzası tanınanlar var”.

Sonra “Ədəbiyyat adamı” mükafatına layiq görülənlər – Ramiz Rövşən, Həmid Herisçi, Aydın Talıbzadə, Rüstəm Behrudi, Azər Turan, Etimad Başkeçid, Aqşin Yenisey, Nərgiz Cabbarlı, Varis, Ulucay Akif təltif olunublar.

Qaliblər çıxış edərək “Ədəbiyyat adamı” mükafatına layiq görüldükləri üçün təşəkkür ediblər.

Qeyd edək ki, “Ədəbiyyat adamı” layihəsi çərçivəsində istər ölkə daxilində, istərsə də xaricdə çoxsaylı tədbirlər, konfranslar, poeziya gecələri, görüşlər, kütləvi açıq müzakirələr, ödənişli qapalı seminarlar keçirilməsi, mükafatların verilməsi nəzərdə tutulub.

# Akademik Nizami Cəfərovun “Ümumi dilçilik” kitabı

**təqdimat**




Azərbaycan Dillər Universitetində Milli Məclisin üzvü, görkəmli dilçi alim, akademik Nizami Cəfərovun “Ümumi dilçilik” dərsliyinin (ikinci nəşr) təqdimat mərasimi keçirildi.

Universitet rəhbərliyinin, tanınmış dilçi alim və ziyalıların iştirak etdiyi tədbiri giriş sözü ilə açan ADU-nun Ümumi dilçilik kafedrasının müdiri, professor Azad Məmmədov təqdim edilən kitabın dilçilik sahəsindəki önəmi, onun Azərbaycan dilçiliyinə gətirdiyi yeniliklər haqqında danışdı, kitabda yer alan əsas mövzular, konsepsiyalar və elmi yanaşmalarla bağlı məlumat verdi.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla Nizami Cəfərovun dilçiliklə bağlı problemləri dərindən araşdırdığı və dilin inkişafı ilə bağlı yenilikçi yanaşmaları ilə ön plana çıxdığını vurğuladı. Nizami Cəfərovun ümumi dilçilik sahəsində təqdim etdiyi yeni kitabı əlamətdar hadisə kimi qiymətləndirən akademik bu cür tədbirlərin dilçilik elmi üçün böyük əhəmiyyət kəsb etdiyini və müsbət nəticələr verdiyini bildirdi: “Nizami Cəfərovun təqdim etdiyi bu kitab ümumi dilçilik sahəsində mövcud olan boşluğu doldurur, bu sahəyə yeni bir yanaşma və dərinlik gətirir. Belə dəyərli kitabın təqdimatı və müzakirəsi yalnız bir dəfə ilə bitirilə bilməz; bu prosesin davam etməsi və kitab üzərində müxtəlif aspektlərdən müzakirələrin aparılması zəruridir. Nizami Cəfərovla tələbələrin ünsiyyətini davam etdirmək isə gələcək nəsillər üçün həm elmi, həm də peşəkar inkişaf baxımından çox faydalı ola bilər”. Kitabın müzakirə və təhlilində davamlı iştirak etmənin vacibliyini vurğulayan akademik Kamal Abdulla Nizami Cəfərovun dilçilik sahəsindəki xidmətlərini təqdirlə qarşılayaraq, onun elmi irsinin gələcək nəsillər üçün dəyərli bir mənbə olduğunu vurğuladı. O, tədqiqatçı alimlərin Nizami Cəfərovun əsərlərindən faydalandıqlarını və bu tədqiqatların dilçilik elminin inkişafında böyük rol oynadığını qeyd etdi.

Təqdimat mərasimində çıxış edən məruzəçilər – dosent Cəmil Babayev, professor Adil Babayev, ADU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Misgər Məmmədov, ADU-nin prorektoru, dosent Jalə Qəribova, Təhsil 1 fakültəsinin dekanı, professor Fikrət Cahangirov, Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli və başqaları Nizami Cəfərovun tərtib etdiyi dərsliyin ümumi dilçilik elminə verdiyi töhfələr və kitabın əhəmiyyətindən danışdılar. Kitabın dilçiliyin inkişafında aparıcı rola malik olduğunu, xüsusilə ümumi dilçilik sahəsində elmi yanaşmalara yeniliklər gətirdiyini vurğulayan məruzəçilər Nizami Cəfərovun dilçilik sahəsindəki dərin elmi araşdırmalarını və yorulmaz əməyini yüksək qiymətləndirdilər, təqdim olunan kitabın tədqiqatçılar, tələbələr və dilçilər üçün əvəzsiz mənbə olduğunu vurğuladılar.

Çıxışlardan sonra akademik Nizami Cəfərov “Ümumi dilçilik” dərsliyinin ikinci nəşrinin yazılma tarixçəsi barəsində tədbir iştirakçılarına ətraflı məlumat verdi. Kitab üzərində işləmə prosesinin mərhələlərini, istifadə etdiyi elmi metodologiyaları və qarşılaşdığı çətinlikləri açıqlayan alim dərsliyin tərtib edilməsində ona ilham verən mənbələr barədə fikirlərini bölüşdü, kitabın ərsəyə gəlməsində onu dəstəkləyən hər kəsə təşəkkürünü bildirdi. “Ümumi dilçilik” dərsliyinin təqdimat mərasiminin təşkilinə görə universitet rəhbərliyinə dərin minnətdarlığını bildirən Nizami Cəfərov tədbirin uğurlu keçirilməsində universitet kollektivinin göstərdiyi dəstəyin böyük rol oynadığını vurğuladı. Alim bu cür təqdimatların dilçilik sahəsinin inkişafına, eləcə də tələbələr və alimlər arasında elmi mübadilənin güclənməsinə mühüm töhfələr verdiyini qeyd etdi.

# Naxçıvan dünən və bu gün

**dəyirmi masa**

Aprelin 25-də ADU-nun Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsi, Azərbaycan ədəbiyyatı kafedrası, “Azərbaycanşünaslıq” Elmi Mərkəzinin təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş “Naxçıvan dünən və bu gün” adlı dəyirmi masa keçirilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, akademik Muxtar İmanov bildirib ki, tarixən çətin sınaqlarla üzləşən Naxçıvan mürəkkəb və şərəfli yol qət edib. Muxtar respublikanın yaradılmasının Azərbaycanın, habelə bölgənin tarixində böyük əhəmiyyət kəsb etdiyini və onun xalqımızın həyatında əlamətdar hadisə olduğunu nəzərə alan Azərbaycan Respublikasının



Prezidenti İlham Əliyev “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalayıb.

Tədbirdə Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsinin dekanı, professor İbrahim Kazımbəyli “Azərbaycan tarixində Naxçıvanın yeri və rolu: dünən və bu gününə konseptual baxış”, “Azərbaycanşünaslıq” Elmi Mərkəzinin baş elmi işçisi, dosent Ülviyyə Rəhimova “Naxçıvan ədəbi mühiti – Cəlil Məmmədquluzadə”, Azərbaycan ədəbiyyatı kafedrasının dosenti Vəfa Fətullayeva “Naxçıvan ədəbi-mədəni mühiti: bu gün” mövzusunda məruzələrlə çıxış ediblər.

Bildirilib ki, 1921-ci il 16 mart tarixli Moskva, 13 oktyabr tarixli Qars müqavilələri ilə Naxçıvanın Azərbaycan tərkibində muxtar respublika statusu təsbit olunub. 1921-ci ilin yanvar ayında bu ərazidə ümumxalq səsverməsi keçirilib və əhalinin 90 faizi Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səs verib. Uzun müzakirələrdən sonra 1924-cü il fevralın 9-da Naxçıvanda Muxtar Sovet Sosialist Respublikası yaradılıb. Naxçıvanın muxtariyyəti xalqımızın və dövlətimizin tarixi nailiyyətidir. Bu muxtariyyət Azərbaycan xalqının çoxəsrlik arzuları reallığa çevrilməsinə imkan verib.

Qeyd olunub ki, qədim yaşayış yurdu olan Naxçıvan ədəbiyyat sahəsində də ciddi uğurlar nümayiş etdirib, burada formalaşan zəngin ədəbi ənənələr böyük ədəbiyyat tarixinin yaradılmasına stimul verib. Azərbaycan ədəbiyyatının xüsusi tərkib hissəsi olan Naxçıvan ədəbi mühiti bütün dövrlərdə Azərbaycan ədəbiyyatına parlaq ədəbi simalar, qiymətli bədii nümunələr bəxş edib. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar xalqımızın zəngin ədəbi irsini bu gün də layiqincə yaşadır.

# Təhsilin inkişafı naminə

## Azərbaycan Dillər Universitetindən möhtəşəm layihə

*(Əvvəli 1-ci səhifədə)*

Biləsuvarda təhsilin inkişafına xüsusi diqqət yetirildiyi vurğulayan Biləsuvar Rayon Hakimiyyətinin başçısı Faiq Qürbətov bildirdi ki, rayonda fransız dilinin tədrisi digər bölgələrə nisbətən daha çoxdur. Fransız dili müəllimlərinin sayca çoxluğuna ADU ilə rayonun təhsil sistemi arasında sıx əlaqələrin, işgüzar əməkdaşlığın müsbət təsiri olmuşdur.

İcra Hakimiyyətindəki görüşdən sonra "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Heydər Əliyev adına parkda ADU əməkdaşlanın iştirakı ilə ağacəkmə aksiyası keçirildi. Aksiya zamanı Heydər Əliyev parkında universitet əməkdaşları tərəfindən şam ağacları əkilərək suvarıldı. Aksiyanın keçirilməsində məqsəd ekoloji vəziyyətin sağlamlaşdırılması, cəmiyyətdə ekoloji mədəniyyəti və təbiətə qayğını təbliğ etmək ənənələrini davam etdirmək, ətraf mühitin qorunmasına töhfə verməkdən ibarət idi.

Daha sonra Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksində Azərbaycan Dillər Universitetinin məzunlarının professionallıq və peşə vərdişlərinin təkmilləşdirilməsi 1-ci regional konfransının açılış mərasimi baş tutdu. Tədbirdə Lənkəran-Astara və Şirvan-Salyan Regional Təhsil İdarələrinin nəzdində fəaliyyət göstərən Biləsuvar, Salyan, Neftçala, Şirvan, Hacıqabul, Cəlilabad, Masallı, Lənkəran, Lerik, Yardımlı və Astara rayon məktəblərinin 150-dək ingilis və fransız dili müəllimləri iştirak edirdilər.



Konfransı giriş sözü ilə açan Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov tədbirin əhəmiyyətindən danışaraq bildirdi ki, ADU-nun rektoru, akademik Kamal Abdullanın təşəbbüsü ilə həyata keçirilən bu mütərəqqi layihənin, ilk dəfə olaraq, məhz Biləsuvarda, Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksində keçirilməsi qürurverici hadisədir. Belə konfransların fəaliyyətinin davamlı olacağına və əhatə dairəsinin getdikcə genişlənəcəyinə ümidvar olduğunu bildirən F.Qürbətov dedi: "Hər bir sahənin başında təhsil durur. Müasir dövrdə isə xarici dillərin öyrənilməsi daha böyük əhəmiyyət kəsb edir. Qlobal və qarşılıqlı əlaqələrə əsaslanan müasir dövrdə dilləri öyrənmək insanların beynəlxalq layihələrdə yaxından iştirak etmələrinə və fərqli mədəniyyətlərə daxil olmalarına əsas verən mühüm tələbdir".

Konfrans iştirakçılarına Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullanın salamlarını çatdıran ADU-nun Tədris məsələləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Kifayət Hacıyeva çıxışına universitetin son illər əldə etdiyi uğurlardan başladı. Bildirildi ki, 2023-cü ildə ADU beynəlxalq reytinqlər cədvəlində (QS World University Rankings by Subject 2023) 161 ölkədən 1495 ali təhsil müəssisəsi arasında "Müasir dillər" üzrə dünyada ən yaxşı 301-340 universitetlər qrupuna daxil olub: "Universitetdə həyata keçirilən yeksək keyfiyyətli tədris, tələbələrin əldə etdikləri bilik və bacarıqlar, məzunlarımızın əmək bazarında tutduğu yerlər ADU trendinin təbliğ olunmasına xidmət edir. Hazırda ADU-da 22-dən çox xarici ölkələrin dil və mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Eyni zamanda, 6 xarici ölkədə Azərbaycan dili və mədəniyyəti mərkəzi açılıb ki, bu fəaliyyət Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün birbaşa vasitədir".

Konfransın əsas məqsədindən danışan prorektor qeyd edib ki, bir zamanlar məzunlarımız universitetdən ayrıldıqdan sonra bugünkü tədris sistemində çoxlu fərqlər yaranıb: "O dövrdə öyrənilən nəzəri biliklər və onların praktikada tətbiqi ilə bugünkü təhsil sistemində fərqlər mövcuddur. ADU rəhbərliyinin bu konfransın keçirilməsində əsas məqsədi bizim məzunlarımızın öz karyeralarını həyata keçirərkən hansı problemlərlə üzləşdiklərini öyrənməkdən ibarətdir. Həmçinin bu problemlərin həlli istiqamətində real addımların atılması da əsas məqsədlərimizdəndir. Gələcəkdə məzunlarımız üçün öz fəaliyyətlərində faydalı olacaq treninqlər təşkil edilməsi planlaşdırılır".

Açılış mərasimində iştirak edən Lənkəran-Astara Regional Təhsil İdarəsi Tədrisin keyfiyyəti sektorunun müdiri Hafiz Pənahov, Şirvan-Salyan Regional Təhsil İdarəsi Tədrisin keyfiyyəti sektorunun müdiri Vüqar Dadaşov, Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksinin icraçı direktoru Aqşin Bağırov çıxış edərək bildirdilər ki, ADU rəhbərliyinin məzunlarla birlikdə işləmək təşəbbüsü, onların yetərli hazırlığını təmin etmək, məzunları müasir iş təcrübəsi ilə tanış etmək təqdirəlayiq fəaliyyətdir. Bu mütərəqqi yolla məzunlar işgüzar dünyaya daha hazır və dəyişkən bir perspektivdə yanaşa bilərlər. Bu yeniliklər universitet məzunlarının öz sahələrində müvəffəqiyyət qazanmalarına və onların gələcək peşəkar həyatlarında uğurlu olmalarına əhəmiyyətli dərəcədə kömək edə bilər.

Konfransın açılış mərasimindən sonra məzunlarla metodiki seminarlar öz işinə başladı. İngilis və fransız dilləri üzrə pedaqoji və psixoloji aspektlərdə fəaliyyət göstərən panellərdə qaldırılan məsələlər ətraflı şəkildə müzakirə olundu. Eyni zamanda, Azərbaycanın Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksində pedaqoji təcrübə keçən ADU-nun 4-cü kurs tələbələri ilə görüş keçirildi.

Tələbələr pedaqoji təcrübə fəaliyyətləri ilə əlaqədar videoçarx nümayiş etdirdilər, burada onlara göstərilən qayğıdan razılıq edərək, xoş təəssüratlarını bölüşdülər. Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksində təcrübə keçdiyi müddətdə uğurlu fəaliyyətinə görə Aydan Mustafazadə, Nihad Əşrəfov, Aysel Məmmədova, İranə Məlikzadə, Vüsalə Adıyeva xüsusi diplomla təltif olundular.

Həmçinin lisey rəhbərliyinin etimadını qazanan ADU-nun Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə təcrübə keçən tələbəsi Nihad Əşrəfova təhsilini bitirdikdən sonra liseydə psixoloq işləməsi təklifinin edilməsi məlum oldu. Bu təklif ADU-da aparılan kadr hazırlığının əmək bazarının tələblərinə uyğun gəldiyini ifadə edirdi.

...Konfrans ingilis və fransız dili müəllimlərin çıxışı, əsas problemlərin ümumiləşdirilməsi və həlli yolları üçün müxtəlif təkliflərin verilməsi ilə yekunlaşdı. Seminarlarda səsləndirilən əsas təkliflərdən biri də növbəti səfərlərdə həm ADU-da, həm də regional yerli məktəblərdə xarici dil müəllimlərinə danışıq, dinləmə, yazı və oxu vərdişlərinin inkişafı üçün ADU müəllimləri tərəfindən təlimlərin təşkil edilməsi oldu.

Məzunlarla metodiki seminarlar yekunlaşdıqdan sonra konfrans iştirakçıları öz təəssüratlarını bizimlə bölüşdülər. ADU-nun bu təşəbbüsünü çox yüksək qiymətləndirən keçmiş məzunlar bu mütərəqqi layihənin davamlı olmasını dilə gətirdilər. Həmçinin belə görüşlərin hər bir rayon üzrə ayrılıqda keçirilməsi də təklif edildi.

Məzunlarla hər üç paneldə iştirak edən ADU-nun Psixologiya kafedrasının müdiri Ceyhun Alıyev qeyd etdi ki, müzakirələr əsasında məzunların daha çox qaldırdığı problem, əsasən, xarici dil üzrə yazılmış dərsliklərin çətin olması ilə əlaqədar oldu. Qaldırılan məsələnin yeni yazılacaq dərsliklərdə nəzərə alınması diqqətə çatdırılıb.

Dil bacarıqları üzrə metodiki seminarın aparıcısı, ADU-nun Fransız dilinin fonetikası və qrammatikası kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Ülfət İbrahim qeyd etdi ki, Fransa Respublikasının müasir zamanda ölkəmizə qarşı apardığı ermənipərəst siyasət bölgələrdə fransız dilinin tədrisi prosesinə də təsirsiz ötüşməyib. Şagirdlər mövcud vəziyyətlə əlaqədar olaraq fransız dilinə o qədər də böyük maraq göstərmirlər. Həmçinin məktəblərdə fransız dili dərsliklərinin çatışmazlığı, mövcud fransız dili dərsliklərinin mürəkkəb tərtib olunması və dərsliklərin arxasında ikidilli lüğətin mövcud olmaması şagirdlərin sərbəst işləməsinə çətinlik yaradır.

Konfrans çərçivəsində ADU-nun Keyfiyyətin təminatı və monitorinq şöbəsi tərəfindən müəllimlərin əsas ehtiyaclarının müəyyənləşdirmək üçün konfransda iştirak edən 150 nəfərə yaxın müəllimə sorğu blankları paylanıldı. Bildirildi ki, sorğunun nəticələrinin təhlili gələcəkdəki inkişaf perspektivlərini müəyyənləşdirməyə yardımcı olacaq.

ADU-nun Tədris məsələləri üzrə prorektoru Kifayət Hacıyeva isə konfransın nəticələrinə yekun vuraraq bunları dedi: "Universitet rəhbərliyinin və əməkdaşlarının cənub bölgəsinə ezamiyyəti xarici dil müəllimlərinin təlim və tərbiyə prosesində dəyişiklik yaratmaq üçün yeni imkanlara yol açdı. Konfransda məzunların səsini eşitdik, onların qarşılaşdıqları problemləri öyrəndik və bu problemlərin effektiv həll yollarını tapmaq qarşıya əsas məqsəd kimi qoyuldu. Bu layihə məzunlarımıza daha effektiv dəstək strategiyaları hazırlağaqda bizə kömək edəcək".

***P.S.***

**...Beləliklə, xarici dil müəllimlərinin problemlərini öyrənmək üçün Azərbaycan Dillər Universitetinin əməkdaşlarının cənub bölgəsinə ilk səfəri uğurla tamamlandı. Məzunların təcrübələri, ehtiyacları ilə daha yaxından tanış olmağa və onlara öz fəaliyyətlərində daha effektiv dəstək göstərməyə imkan verən bu layihənin ADU tərəfindən mütəmadi olaraq həyata keçirilməsi nəzərdə tutulur.**

***Sadiq ZAMAN,***
***filologiya üzrə fəlsəfə doktoru***
**Bakı-Biləsuvar-Bakı**

ADU - 75

# Milli dəyərlərdən keçən yol




İndi Azərbaycan Dillər Universiteti kimi tanınan məşhur təhsil müəssisəsi müxtəlif dövrlərdə fərqli şəkildə adlandırılıb. Amma “xarici dillər”, nəhayət, “dillər” əlaməti həmişə üstündə olub. Başqalarında deyə bilmərəm, məndə istər əvvəllər, istərsə də burada işlədiyim ilk dövrlərdə bu ali təhsil müəssisəsi ilə bağlı yaranan birinci təəssürat belə olub: Universitetdə tələbə gənclərlə aparılan işlərin əsas məqsədi onlarda dilini öyrəndikləri xalqın dəyərlərini, adət-ənənələrini, tarixini tanıtmaq, əlbəttə, dilini öyrətmək! Lakin universitetlə yaxından tanışlıq, xüsusən, son dövrlərdəki fəaliyyətinin öyrənilməsi, burada milli dəyərlərimizə göstərilən qürurdoğurucu münasibət, onların bəşəri dəyərlərlə vəhdətdə mənimsənilməsi, dərk edilməsi üçün görülən genişmiqyaslı tədbirlər problemin daha düzgün, daha səmərəli həll edildiyinə əminlik yaratdı.

Milli mənafeyə xidmət edən universitetdaxili bu siyasətin haradan qaynaqlanıb güc aldığı mənim üçün həmişə maraqlı olub. Gəldiyim qənaət məsələyə belə yanaşmanın təsadüfi olmadığını birmənalı şəkildə sübut edir: Universitetin tarixi ilə az-çox tanış olanlar yaxşı bilirlər ki, təhsil müəssisəsinin mövcudluğu, müstəqil ali məktəb kimi fəaliyyət göstərməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin milli dəyərlərimizə, mədəni irsimizə, sivilizasiyamızın formalaşmasında müstəsna təsiri olmuş tarixi keçmişimizə münasibəti, onların qorunması, inkişaf etdirilməsi, dünyada tanıdılması üçün həyata keçirdiyi nəhəng fəaliyyət unudulmazdır. Bir daha yəqin etdim ki, Azərbaycanın dövlət siyasətində milli dəyərlərimizin əbədi yeri Ümummilli Lider Heydər Əliyevin və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu dəyərlərə göstərdikləri qayğı ADU-da hərtərəfli şəkildə nəzərə alınır. İstər təlim prosesində, istərsə də təlimdənkənar vaxtlarda həyata keçirilən tədbirlərdə milli dəyərlərimizin öyrədilməsi, qorunması və fəaliyyətdə nəzərə alınması prioritet vəzifə olaraq qalır.

Maraqlı və maraqlı olduğu qədər də faydalı cəhətlərdən biri budur ki, ADU-da gəncləri təkcə milli dəyərlərimizlə tanış etmir, həm də gələcək fəaliyyətlərində bu dəyərlərdən istifadə, onların tətbiqi məsələləri öyrədilir. Bu, ixtisaslardan asılı olaraq fərqli istiqamətlərdə həyata keçirilir. Məsələn, pedaqoji ixtisas üzrə təhsil alan tələbələr mill dəyərlərimizlə bağlı tədbirlərin keçirilməsi yollarını öyrənirlər. Müəllim olacaq gənclərin bu sahədə öyrəndiklərini tətbiq etdikləri ilk yer pedaqoji təcrübədə olduqları məktəbdir. Dördüncü kursun son semestrini tələbələr məktəbdə keçirir, universitetdə aldıqları nəzəri bilikləri pedaqoji prosesdə tətbiq edirlər. Yeri gəlmişkən, qeyd edək ki, dərsdənkənar tədbirlərin təşkilinin, şagirdlərlə müxtəlif tərbiyəvi işlərin reallaşdırılması üzrə biliklərin verilməsinin əsas ağırlığı Pedaqogika kafedrasının üzərinə düşür. Təlim məşğələlərində kafedranın əməkdaşları mövcud tədris proqramı və dərslik əsas götürülməklə tərbiyə nəzəriyyəsinin müxtəlif xüsusiyyətləri üzrə iş aparır, tələbələri gələcək pedaqoji fəaliyyətə yüksək səviyyədə hazırlayırlar.

Pedaqoji təcrübə prosesində tələbələr təkcə ixtisasları üzrə dərs demir, paralel şəkildə dərsdənkənar tədbirlər təşkil edir, məktəbin idarə olunması məsələlərini, pedaqoji şuranın işini, müəllim təcrübəsini öyrənir, valideynlərlə əlaqə saxlayır, şagirdlərlə əlavə məşğul olurlar. Yeri gəlmişkən, qeyd edək ki, məktəbdə də ikinci istiqamət üzrə fəaliyyətin əsas təşkilatçıları, psixoloq və metodistlərlə əlaqəli şəkildə pedaqogika kafedrasının əməkdaşları olurlar. Onlar milli dəyərlərimizlə bağlı tədbirlərin keçirilməsi üçün tələbələrə məsləhət verir, tədbirin maraqlı, canlı olmasında köməklərini əsirgəmirlər. Görüləcək və görülmüş işlər Pedaqogika kafedrasında sistemli şəkildə müzakirə olunur, tədbir barədə mətbuatda yığcam məlumatlar verilir.

Bu sətirlərin müəllifinin araşdırmalarından aydın oldu ki, pedaqoji təcrübə təşkil edilən məktəblərdə istisnasız şəkildə tələbələrin hamısı əhatə olunmaqla milli dəyərlərimiz, adət-ənənələrimiz, mədəniyyətimiz, tarixi irsimizlə bağlı tədbirlər təşkil edilir. Universitetin təşkil etdiyi Ümummilli lider Heydər Əliyevə həsr olunmuş tədbirlərin məzmun zənginliyi, forma müxtəlifliyi baxımından uzun illər gənclərimizin yaddaşında qalacağı şübhəsizdir. Tədbirlərdə ulu öndərin çoxtərəfli zəngin irsi diqqətə çatdırılmaqla yanaşı, onun milli dəyərlərimizə qayğısı, bu sahədə həyata keçirdiyi nəhəng işlər də işıqlandırılır. Magistratura şöbəsinin birinci kurs tələbəsinin “Heydər Əliyev və ailə dəyərləri” mövzusunda çıxışı, məzmunla bağlı nümayiş etdirilən video-çarx iştirakçılar, gənclər tərəfindən alqışlarla qarşılandı. Bu çıxışın başlıca məqsədi H.Əliyevin ailə nümunəsinin milli dəyərlərimizlə səsləşməsi, üst-üstə düşməsi olduğundan, həm də tərbiyəvi təsirə malikdi. Tələbələr bir daha yəqin edirlər ki, ulu öndərin həyatı, yaradıcılığı, bir sözlə, zəngin fəaliyyəti Azərbaycan xalqının milli dəyərləri sistemində özünəməxsus yer tutur və onların öyrənilməsi, gələcək fəaliyyətlərində nəzərə alınması hər birinin müqəddəs borcudur. Tədbirdə professor Novruz Məmmədovun H.Əliyevlə bağlı xatirələri, onun böyük siyasətçi, millətini sevən vətəndaş, idarəetmə ustası olması ilə bərabər həm də sadə bir insan olması ilə bağlı söylədiyi fikirlər tədbirin dəyərini, gənclərin bir şəxsiyyət kimi formalaşmalarına təsirini daha da artırdı, iştirakçılarda kövrək hisslər oyatdı.

Tədbirlərin sistemliliyi, tələbələrin təşəbbüskarlığına, fəallığına, təşkilatçılığına üstünlük verilməsi bu tədbirlərin yaddaqalan olmasını, mənəvi aləmlərinə daha güclü təsir göstərməsini təmin edir. Tələbələrlə keçirilən sorğular tədbirlərin onların formalaşmasında, müəllim kimi yetişməsində böyük rolu olduğunu sübut edir. Təbii, bütün bunlar universitetin daxili siyasəti nəzərə alınmaqla həyata keçirilir. Tədbirlərdə universitetin müxtəlif idarəetmə strukturlarının nümayəndələrinin iştidak etmələri, aparılan tələbəyönümlü siyasət konkret fəaliyyətə marağı artırır, məsuliyyət hissini möhkəmləndirir. Tələbəyönümlük, universitetdə təhsil alan gənclərin karyerası problemi təhsil müəssisəsinin daxili siyasətinin tərkib hissəsidir.

Qarabağ müharibəsi iştirakçılarına universitetdə göstərilən həssas münasibət məsələnin aktuallığını gənclərə bir daha xatırladır, onların həyatda, təhsildə düzgün mövqe tutmalarına kömək edir. Bu yaxınlarda universitetin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdullayevin təşəbbüsü ilə ADU-nun qızlar yataqxanasında Zəfər Gününə həsr olunmuş bədii yaradıcılıq müsabiqəsi təşkil olunub. Tələbə yazarların Zəfər gününə həsr etdikləri şeirlər, hekayələr öz ifalarında dinlənilib. Müzakirələrdən sonra qaliblər müəyyənləşdirilib. Onlar rektorun fəxri fərmanı və pul mükafatı ilə rəğbətləndirilib. Dinlənilən yazıların məzmunu bir daha göstərdi ki, universitetdə aparılan sistemli işlər gənclərimizin qəlbində şəhidlərimizə, qazilərimizə, zabitlərimizə, ümumilikdə müharibə iştirakçılarına dərin hörmətin, qayğıkeşlik hissinin yaranmasında, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin işğalçı düşmən üzərində qələbə qazanmağımızın təməlinə çevirilmiş siyasətinin qavranılmasında danılmaz təsiri olmuşdur. Bütün bunlar ADU-da gənclərimizin həyatda düzgün mövqe tutmalarına, vətənpərvər insanlar kimi formalaşmalarına necə diqqət yetirildiyini bir daha sübut edir.

*Oqtay ABBASOV,*
*Pedaqogika kafedrasının dosenti*

# Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransı

**Azərbaycan Dillər Universitetində Müəllim Həmkarlar İttifaqı Komitəsinin (MHİK) növbəti hesabat-seçki konfransı keçirilib.**

Öncə Dövlət Himni səsləndirilib, hesabat-seçki konfransının gündəliyi təqdim olunub. Hesabat gündəliyinin MHİK-nin 2017-2024-cü ilin mart ayına qədər olan dövrü əhatə etdiyi qeyd olunub.

MHİK-nin sədri, dosent Misgər Məmmədov son yeddi il ərzində komitənin fəaliyyəti, görülən işlər, əldə olunan uğurlar haqqında məlumat verib. Bildirilib ki, ADU əməkdaşlarının sosial-rifah halının yaxşılaşdırılması, iş şəraitinin daha da əlverişli olması, kütləvi tədbirlərin keçirilməsi, bayramların təşkil olunması, müxtəlif maddi yardımların, təltiflərin, hədiyyələrin verilməsi, müəllimlərin yubileylərinin keçirilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Qeyd olunub ki, MHİK tərəfindən hər il yüzə yaxın



ADU əməkdaşının sanatoriyalara göndərilməsi, pul mükafatlarının verilməsi, zəruri ehtiyacların ödənilməsi əsas prioritet məsələlərdən hesab olunur.

Daha sonra çıxış edən ADU-nun rektoru, akademik Kamal Abdulla MHİK-nin fəaliyyəti haqqında fikirlərini bölüşüb. Bildirilib ki, komitə öz işində qarşıya qoyulan məqsəd və vəzifələri uğurla yerinə yetirib, komitə üzvləri kollektivin dərin hörmətini və etimadını qazanıb.

ADU-nun artan nüfuzu və beynəlxalq reytinq cədvəlindəki uğurundan danışan rektor, bunu bütün kollektivin fədakar əməyinin göstəricisi olduğunu vurğulayıb. Qeyd olunub ki, MHİK əməkdaşların fəaliyyətində müsabət rol oynamaqla, onları daha səmərli, daha faydalı olmağa təşviq edib. Bu da ADU-da iş keyfiyyətinin yüksəlməsinə birbaşa təsir göstərmişdir.

Konfrans yeni komitə üzvlərinin və sədrin seçilməsi ilə davam edib. ADU MHİK-nin növbəti sədri böyük səs çoxluğu ilə dosent Misgər Məmmədov seçilib.

Qeyd edək ki, Misgər Məmmədov 1978-ci ildən Azərbaycan Dillər Universitetində çalışır. 5 kitabın, 200 məqalə və tezisin müəllifidir. 12 məqaləsi Avropanın müxtəlif ölkələrində nüfuzlu jurnallarda çap olunub.

# Qalib xalqın vətənpərvər gəncliyi

*ADU-nun Tələbə Gənclər Təşkilatının sədri Nicat Əliyevin fəaliyyətini əks etdirən bu məqalə “Azərbaycan” qəzetində dərc edilmişdir. Mövzunun aktuallığını, ictimai-siyasi əhəmiyyətini nəzərə alaraq “Poliqlot”un səhifələrində yerləşdirməyə qərar verdik.*



2024-cü il 1-7 mart tarixlərində Rusiyanın “Sirius” Federal Ərazisində (Soçi yaxınlığında) Ümumdünya Gənclər Festivalı keçirilib. Dünyanın 188 ölkəsindən 300 mindən çox gəncin müraciət etdiyi beynəlxalq tədbirdə Rusiya və xarici ölkələrin 18-35 yaşarası 20 min nümayəndəsi iştirak edib. Festivala biznes, media, beynəlxalq əməkdaşlıq, mədəniyyət, elm, təhsil, könüllülük və xeyriyyəçilik, idman, ictimai həyatın müxtəlif sahələrindən olan gənc liderlər qatılıb.

Ümumdünya Gənclər Festivalı tədbirləri həmrəylik, bərabərlik, ədalət, qarşılıqlı yardım, komanda işi və xeyirxahlıq kimi ümumi dəyərlər üzərində qurulub. Beynəlxalq tədbirdə iştirak edən 150-yə yaxın azərbaycanlı gəncdən biri də Azərbaycan Dillər Universitetinin Tələbə Gənclər Təşkilatının sədri Nicat Əliyev olub.

“Dünya Gənclər Festivalı 2024”ün fərqli ölkələrdən olan gənclərin bir araya gəlməsi, onların şəbəkələşməsi, əlaqələrin qurulması, gücləndirilməsi istiqamətində mühüm platforma olduğunu deyən Nicat Əliyev söyləyir ki, istər müxtəlif yüksəksəviyyəli silsilə tədbirlərdə fəal iştirak, istərsə də ölkəmizlə bağlı həqiqətlərin dünyanın dörd bir tərəfindən gəlmiş gənclər vasitəsilə beynəlxalq arenaya çatdırılması baxımından Azərbaycan nümayəndə heyətinin Soçidə keçirilən festivalda iştirakının çox məhsuldar olduğunu deyə bilərik: “Ən ümdəsi gənclərimiz bu festivalda Zəfərimizdən doğan böyük ruh yüksəkliyi ilə çıxış etdilər. Biz orada Azərbaycanı qalib xalqın qalib gəncliyi kimi təmsil edir, tarixə, ədalətə, beynəlxalq hüquqa dayanan güclə haqq işimizi, ölkəmizi tanıdırıq”.

### “İlin Tələbə Gənclər Təşkilatı Sədri”

2004-cü ildə Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açan, əslən Qərbi Azərbaycandan olan Nicat Pərviz oğlu Əliyev 2021-ci ildə Azərbaycan Dillər Universitetinin Alman dili müəllimliyi ixtisasına qəbul olub. Təhsil ocağında sosial sahədə də aktiv fəaliyyətə başlayan Nicat Əliyev əvvəlcə universitetin Tələbə Gənclər Təşkilatının sədr müavini, 2023-cü ildən isə sədri olub. Bununla yanaşı “ASAN xidmət”də könüllü olaraq fəaliyyət göstərib. Hazırda isə o, Xarici İşlər Nazirliyində diplomatik könüllü kimi xidmət göstərir.

Qeyd edək ki, bu il Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) tərəfindən 2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə Tələbə Gənclər Təşkilatlarının Respublika Forumu keçirilib. Forumda Azərbaycan Dillər Universitetinin Tələbə Gənclər Təşkilatının sədri Nicat Əliyev “İlin Tələbə Gənclər Təşkilatı Sədri” nominasiyasına layiq görülüb.

### Gənclər siyasəti dövlətimizin prioritetidir

Vaxtilə Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş gənclər siyasəti sayəsində sağlam əqidəli, çağdaş düşüncəli, milli ruhlu Azərbaycan gəncliyinin yetişdiyini deyən Nicat Əliyev bildirir ki, məhz həmin siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün gənclər cəmiyyətimizin ən aparıcı qüvvəsinə çevriliblər: “Ulu Öndərin 1997-ci ildə 2 Fevral – Gənclər Gününü təsis etməsi mühüm hadisə idi. Onu da xüsusi qeyd edim ki, hətta 12 Avqust – Dünya Gənclər Günü Azərbaycanda bu gün təsis olunandan bir neçə il sonra yaradılıb. Təbii ki, bu, gənclərimizin sosial fəallığı, onların maarifləndirilməsi istiqamətində öz töhfəsini verdi. Onlar üçün yaradılan hərtərəfli şəraitdən yararlanan gənclərimiz dünyaya çıxdılar, müxtəlif ölkələrin nüfuzlu universitetlərində təhsil aldılar, eyni zamanda xaricdə də təşkilatlanmağa, ölkəmizin milli maraqları uğrunda həmrəyliklə mübarizə aparmağa başladılar”.

Prezident İlham Əliyevin şəxsi diqqəti sayəsində gənclər siyasətinin dövlətimizin prioriteti olduğunu söyləyən təşkilat sədri vurğulayır ki, dövlət qurumlarında könüllü ictimai fəaliyyət dünyanın heç bir ölkəsində yoxdur. Amma Azərbaycanda nəinki dövlət qurumlarında, ümumiyyətlə, bütün sahələrdə könüllülük fəaliyyəti geniş vüsət alıb. Yəni könüllülük dövlət gənclər siyasətinin bir qoludur və bu, biz gənclər üçün böyük şansdır: “Son 20 ildə Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, gənclər siyasəti istiqamətində də mühüm işlərə imza atıb. Azərbaycan gəncliyinin fiziki və mənəvi inkişafından, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasından tutmuş onlar haqqında hüquqi normativ bazanın yaradılmasına qədər hər bir sahədə ardıcıl və sistemli tədbirlər həyata keçirib”.




### İnformasiya savaşının gənc fəalı

Nicat Əliyev söyləyir ki, gənclərimiz Azərbaycanı bütün beynəlxalq platformalarda uğurla təmsil edirlər, mövqeyimizi qətiyyətlə müdafiə edirlər. 44 günlük Vətən müharibəsində isə bütün dünya Azərbaycan gəncliyinin vətənpərvərliyinin əyani şahidi oldu: “Düşmənə qalib gəlmək üçün hərblə yanaşı, informasiya müharibəsinin aparılması da çox vacib şərtdir. Vətən müharibəsi günlərində Azərbaycan gəncliyi sözün əsl mənasında iki cəbhədə döyüşdü – yarısı əldə silah ön cəbhədə, yarısı da sosial şəbəkələrdə, müxtəlif beynəlxalq KİV vasitələrində ölkəmizin haqlı mövqeyini təbliğ edərək, həqiqəti dünyaya çatdıraraq düşmənlə layiqli mübarizə apardı. Mən özüm də tvitter (indi “X”) sosial şəbəkəsində, daha çox MDB məkanının olduğu “kontakte.ru” və digər sosial platformalarda Azərbaycan həqiqətlərinin çatdırılması, cənab Ali Baş Komandan İlham Əliyevin tviter hesabından etdiyi paylaşımların dünya ictimaiyyətinə çatdırılması istiqamətində işlər gördüm. Real faktlar vasitəsilə əsl gerçəklərin beynəlxalq aləmə çatdırılması üçün əlimdən gələni etməyə çalışdım”.

Nicat Əliyev bildirir ki, 2022-ci ilin dekabrında Laçın-Xankəndi yolunda ekofəallarımızın keçirdiyi dinc etiraz aksiyası zamanı da rəhbəri olduğu təşkilat fəal iş aparıb: “Universitetimizin qız və oğlanlardan ibarət əlliyə yaxın tələbəsi aksiyada iştirak etdi, qar-borana, şaxtaya baxmadan son günə qədər haqlı etirazlarını bildirdilər”.

### Əhəmiyyətli və məhsuldar görüşlər

Bu il 1-7 mart ərəfəsində Soçidə keçirilən Ümumdünya Gənclər Festivalı barədə ətraflı məlumat verən gənc Azərbaycan nümayəndə heyəti olaraq bütün vacib tədbirlərdə fəal iştirak etməyə qərar verdiklərini söyləyir: “Lakin saylar məhdud olduğuna, məsələn, əksər hallarda bir tədbirə ancaq 50-60 nəfərin qatıla bildiyinə görə çalışdım ki, sırf bizim üçün məhsuldar ola biləcək, əhəmiyyətli tədbirlərə qoşulaq. Bəzən hətta müraciət etmək belə məqbul sayılmırdı, canlı növbə vasitəsilə tədbirə buraxılırdın. Bunlardan biri Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedevin tədbiri idi. Martın 4-də keçirilən tədbirdə Dmitri Medvedevlə kiçik dialoqum da baş tutdu. Həmçinin Rusiya xarici işlər naziri Sergey Lavrovun, Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskovun tədbirində iştirak etdim. Dmitri Peskovun tədbirində 100 nəfər iştirak edirdi və cəmi 5 nəfərə sual vermək haqqı tanınmışdı ki, onlardan da biri mən idim. Martın 6-da isə Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə festivalın bağlanış mərasimi oldu”.

Təşkilat sədri qeyd edir ki, festival ərəfəsində xarici ölkələrin gənclər təşkilatlarının sədrləri ilə də görüşlər keçirərək Azərbaycan həqiqətlərini onlara çatdırıblar: “İstər Rusiyadan, istərsə də Afrika, Avropa, Asiya ölkələrindən olsun, müxtəlif millətlərdən olan gənclərlə görüşüb, gələcəkdə nə kimi fəaliyyət göstərəcəyimizlə bağlı müzakirələr apardıq, kontaktları bölüşdük ki, ən azından ilkin mərhələdə onlayn görüşlər təşkil edək”.

### Düşmən fitnəsinə layiqli cavab

Nicat Əliyev “Ümumdünya Gənclər Festivalı 2024” çərçivəsində Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarovanın iştirakı ilə baş tutan konfransda Ermənistan tərəfindən törədilən Xocalı soyqırımı hadisəsinə də toxunduğunu bildirdi: “Mariya Zaxarova mənə cavabında dedi ki, “bəli, biz bu soyqırımı tanıyırıq, amma biz xalqlar çalışmalıyıq ki, gələcəyimizə baxaq”. Mən isə öz növbəmdə vurğuladım ki, “biz qətiyyən xalqların düşmənçiliyini istəmirik, amma heç zaman da tariximizi unutmuruq, unutdurmuruq”.

Soçidə keçirilən festivalda hər bir ölkənin mədəni irsini nümayiş etdirməsi üçün stendlər də olub. Təşkilat sədri deyir ki, Azərbaycan yaradıcı heyəti çıxış edən zaman onlar erməni təxribatı ilə üzləşiblər. Belə ki, erməni separatçı qüvvələri artıq tarixin zibilliyinə tolazlanmış qondarma qurumun əski parçasını tədbirdə nümayiş etdirmək istəyiblər, ancaq azərbaycanlı gənclər onların bu murdar niyyətinə imkan verməyiblər: “Biz dərhal təşkilatçılara etiraz və iradlarımızı bildirdik və onlar qısa müddətdə bu təxribatı aradan qaldırdılar. “Sarı gəlin” xalq mahnımız ifa olunanda da ermənilər müəyyən təxribatlara əl atır, müxtəlif yollarla bizi təhrik etməyə çalışırdılar ki, aramızda nəsə münaqişə yaransın və Azərbaycan tərəfini günahkar çıxarsınlar. Təbii ki, biz bu təxribatlara uymadıq. Onların bütün təxribatlarının qarşısını qanun-qayda yolu ilə aldıq”.

### İşıqlı gələcəyin açarı gəncliyin əlindədir

2023-cü ilin rəhbərlik etdiyi ADU TGT üçün olduqca məhsuldar il olduğunu da diqqətə çatdıran Nicat Əliyev məlumat verdi ki, həm dövlətin gənclər siyasəti istiqamətində, həm də “Heydər Əliyev İli” çərçivəsində silsilə tədbirlər təşkil ediblər: “Azərbaycan gəncliyinin formalaşması, daha da irəli getməsi istiqamətində əlimdən gələn qədər fəaliyyət göstərməyə çalışıram. Yüksək təhsil almaqla bərabər, tələbə gənclərin həm də sosial fəaliyyətlə məşğul olmasını təşviq edirəm. Belə olarsa, gələcəyimiz daha da işıqlı olar”.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

*Pierre Gripari*

# Le gentil petit diable

## (fransız dilində)

Il était une fois un joli petit diable, tout rouge,avec deux cornes noires et deux ailes de chauvesouris. Son papa était un grand diable vert et sa maman une diablesse noire. Ils vivaient tous les trois dans un lieu qui s'appelle l'Enfer, et qui est situé au centre de la terre.

L'Enfer, ce n'est pas comme chez nous. C'est même le contraire : tout ce qui est bien chez nous est mal en Enfer; et tout ce qui est mal ici est considéré comme bien là-bas. C'est pourquoi, en principe, les diables sont méchants. Pour eux, c'est bien d'être méchant. Mais notre petit diable, lui, voulait être gentil, ce qui faisait le désespoir de sa famille. Chaque soir, quand il revenait de l'école, son père lui demandait:

– Qu'est-ce que tu as fait aujourd'hui?

– Je suis allé à l'école.

– Petit imbécile! Tu avais fait tes devoirs?

– Oui, Papa.

– Petit crétin! Tu savais tes leçons?

– Oui, Papa.

– Petit malheureux! Au moins, j'espère que tu t'es dissipé?

– Ben…

– As-tu battu tes petits camarades?

– Non, Papa.

– As-tu lancé des boulettes de papier mâché?

– Non, Papa.

–As-tu seulement pensé à mettre des punaises sur le siège du maître pour qu'il se pique le derrière?

– Non, Papa.

– Mais alors, qu'est-ce que tu as fait?

– Eh bien, j'ai fait une dictée, deux problèmes, un peu d'histoire, de la géographie…

En entendant cela, le pauvre papa diable se prenait les cornes à deux mains, comme s'il voulait se les arracher:

– Qu'est-ce que j'ai bien pu faire à la Terre pour avoir un enfant pareil? Quand je pense que, depuis des années, ta mère et moi, nous faisons des sacrifices pour te donner une mauvaise éducation, pour te prêcher le mauvais exemple, pour essayer de faire de toi un grand, un méchant diable! Mais non! Au lieu de se laisser tenter, Monsieur fait des problèmes! Enfin, quoi, réfléchis: Qu'est-ce que tu comptes faire, plus tard?

– Je voudrais être gentil, répondait le petit diable. Bien entendu, sa mère pleurait, et son père le punissait. Mais il n'y avait rien à faire : le petit diable s'obstinait. À la fin, son père lui dit:

– Mon pauvre enfant, je désespère de toi. J'aurais voulu faire de toi quelqu'un, mais je vois que c'est impossible. Cette semaine encore, tu as été premier en composition de français! En conséquence, j'ai décidé de te retirer de l'école et de te mettre en apprentissage. Tu ne seras jamais qu'un petit diablotin, un chauffeur de chaudière… Tant pis pour toi, tu l'as voulu ! Et en effet, dès le lendemain, le petit diable n'alla plus à l'école. Son père l'envoya à la Grande Chaufferie Centrale, et là il fut chargé d'entretenir le feu sous une grande marmite où bouillaient une vingtaine de personnes qui avaient été très, très méchantes pendant leur vie.

Mais là non plus le petit diable ne donna pas satisfaction. Il se prit d'amitié pour les pauvres damnés et, toutes les fois qu'il le pouvait, laissait le feu baisser pour qu'ils n'aient pas trop chaud. Il parlait avec eux, leur racontait des histoires drôles, afin de leur changer les idées – ou encore il les interrogeait:

– Pourquoi êtes-vous ici? Alors ils répondaient: nous avons tué, ou nous avons volé, nous avons fait ceci, cela.

– Et si vous pensiez très fort au bon Dieu? demandait le petit diable. Vous ne croyez pas des fois que ça pourrait s'arranger?

– Hélas non! disaient-ils. Du moment que nous sommes ici, c'est pour toujours!

– Ça ne fait rien, pensez-y un peu, pendant que vous n'avez pas trop chaud… Ils y pensaient, et même certains d'entre eux, pouryavoir pensé quelques minutes, disparaissaient d'un coup – pop! – comme une bulle de savon. On ne les voyait plus. C'était le bon Dieu qui leur avait pardonné. Cela dura jusqu'au jour où le Grand Contrôleur des Chaudières Diaboliques fit sa tournée d'inspection annuelle. Et quand il arriva à la chaudière de notre petit diable, il fit un beau vacarme!

– Qu'est-ce que c'est que ça? Cette chaudière doit contenir vingt et une personnes et je n'en trouve que dix-huit! Qu'est-ce que ça veut dire? Et le feu est presque éteint! Qu'est-ce que c'est que ce travail? Alors, ce n'est plus l'Enfer, ici, c'est la Côte d'Azur? Allez, vivement, soufflez-moi là-dessus, et que ça bouille! Et quant à vous, mon petit ami (il s'adressait à notre jeune diable), quant à vous, puisque vous n'êtes pas capable d'entretenir un feu, on va vous mettre à l'extraction de la houille! Et le lendemain le petit diable travaillait dans une mine de charbon. Armé d'un pic, il extrayait de gros morceaux de houille et creusait des galeries. Cette fois, on fut content de lui, car il travaillait de tout son coeur. Bien sûr, il le savait, ce charbon-là était destiné aux chaudières, mais il était ainsi fait que lorsqu'il entreprenait un travail, il ne pouvait s'empêcher de le faire bien. Un jour, comme il creusait une galerie dans une veine d'anthracite, voilà qu'en donnant un coup de pic il se vit tout à coup inondé de lumière. Il regarda dans le trou qu'il avait fait, et vit une grande salle souterraine très éclairée, avec un quai plein de gens affairés qui descendaient et qui montaient dans un petit train vert avec une voiture rouge. C'était le métro!

– Chic! pensa-t-il. Me voilà chez les hommes! Ils vont pouvoir m'aider à être gentil! Il sortit de son trou, et sauta sur le quai. Mais à peine l'eurent-ils aperçu que les gens se sauvèrent avec des cris horribles. Comme c'était heure de pointe, il y eut bousculade, des enfants étouffés, des femmes piétinées. Le petit diable avait beau crier:

– Mais restez là! N'ayez pas peur! Il n'arrivait même pas à se faire entendre. Les gens criaient plus fort que lui. Dix minutes plus tard, la station était vide, à l'exception des morts et des blessés. Ne sachant trop que faire, le diable alla droit devant lui, monta un escalier, deux escaliers, poussa une porte et se trouva dans la rue. Mais les pompiers, qui l'attendaient, l'arrosèrent brutalement avec la lanceàincendie. Il voulut fuir du côté opposé, mais des agents lui foncèrent dessus, la matraque haute. Il voulut s'envoler, mais les hélicoptères de la police l'avaient déjà repéré. Heureusement il aperçut, tout au bord du trottoir, l'ouverture d'une bouche d'égout, et il s'y engouffra.

Toute la journée, il la passa à circuler dans des souterrains pleins d'eau sale. Ce n'est qu'à minuit sonné qu'il remonta à la surface, et se mit à marcher dans les petites rues sombres, en se disant:

– Il faut pourtant que je trouve quelqu'un qui me vienne en aide! Comment leur faire comprendre que je ne suis pas méchant? Comme il disait ces mots, une vieille dame apparut, qui s'approchait en trottinant. Le diable alla à sa rencontre, la tira par la manche et appela doucement:

– Madame… La vieille dame se retourna:

– Qu'est-ce qu'il y a, mon petit garçon? Tu n'es donc pas encore couché, à cette heure-ci?

– Madame, dit le petit diable, je veux être gentil. Comment est-ce que je dois faire? Au même moment, la vieille dame, en regardant mieux, aperçut les deux cornes et les ailes de chauve-souris. Elle se mit à balbutier:

– Non! Non! Pitié, mon Dieu! Je ne le ferai plus!

– Qu'est-ce que vous ne ferez plus? demanda le petit diable. Mais la dame ne répondit pas. Elle tomba évanouie.

– Pas de chance, pensa le diable. Elle avait pourtant l'air gentil… Il s'en alla un peu plus loin et, passant par la rue Broca, aperçut une boutique éclairée. Il s'approcha et vit, par la porte vitrée, Papa Saïd qui avait déjà fermé et se préparait à aller se coucher. Le diable, timidement, frappa contre la vitre:

– Excusez-moi, Monsieur…

– C'est trop tard! dit Papa Saïd.

– Mais je voudrais – Je vous dis que c'est fermé..!

– Mais je ne veux pas boire, je veux être gentil!

– C'est trop tard ! Revenez demain! Le petit diable était désespéré. Il commençait à se demander s'il ne ferait pas mieux de retourner en Enfer et de devenir méchant, comme tout le monde, quand tout à coup il entendit un pas d'homme. «C'est ma dernière chance», pensa-t-il. Il courut en voletant dans cette direction et s'arrêtaàl'angle d'un boulevard. Une ombre noire venait à sa rencontre. C'était comme une femme, mais cela marchait comme un soldat, à grandes enjambées. En vérité c'était un prêtre, vêtu de sa soutane, qui revenait de chez un malade. Le petit diable l'aborda:

– Pardon, Monsieur…

– Pardon? Le prêtre regarda, fit un saut sur lui-même, et se mit à faireàtoute vitesse de drôles de gestes devant sa figure, en murmurant un tas de choses en latin, que le diable ne comprit pas. Comme le diable était poli, il attendit que le prêtre ait fini son manège, puis il reprit:

– Pardon, Monsieur. Je suis un petit diable et je voudrais devenir gentil. Que dois-je faire? Le prêtre ouvrit de grands yeux:

– Tu me demandes ce que tu dois faire?

– Oui, pour devenir gentil. Qu'est-ce qu'on fait, à mon âge, pour devenir gentil?

– On obéit à ses parents, dit le prêtre, sans réfléchir.

– Mais je ne peux pas, Monsieur. Mes parents, eux, voudraient que je devienne méchant! Le prêtre, cette fois, commençait à comprendre.

– Ah zut, c'est vrai! dit-il. Mais aussi, quelle affaire! C'est bien la première fois que j'entends parler d'un cas pareil… Au moins, tu es sincère?

– Oh oui, Monsieur!

**Pier Qripari**

# Xeyirxah balaca şeytan

Bir zamanlar qıpqırmızı, iki qara buynuz və iki yarasa qanadlı kiçik bir xeyirxah şeytan var idi. Atası böyük yaşıl şeytan, anası isə qara şeytan idi. Üçü də yerin mərkəzində, cəhənnəm adlı bir yerdə yaşayırdılar.

Cəhənnəm dünya kimi deyil. Əslində buranın tam əksi: burada yaxşı olan hər şey cəhənnəmdə pis, pis olan hər şey orada yaxşı hesab olunurdu. Buna görə, prinsipcə, şeytanlar pisdir. Onlar üçün pis olmaq yaxşıdır. Ancaq balaca şeytan xeyirxah olmaq istədi, bu da ailəsini ümidsizliyə saldı. Hər axşam məktəbdən qayıdanda atası ondan soruşurdu:

– Bu gün nə etdin?

– Məktəbə getdim.

– Sən balaca axmaq! Ev tapşırığını etdin?

– Bəli, ata.

– Balaca axmaq! Dərslərini bilirdin?

– Bəli, ata.

– Səni balaca işə yaramaz! Ümid edirəm, heç olmasa düzələcəksən?

– Əslində...

– Kiçik dostlarını döymüsən bəs?

– Yox, ata.

– Bəs onların üstünə çeynənmiş kağız atdın?

– Yox, ata.

– Müəllimlərini sancması üçün onların oturduqları yerə rəsm sancaqları qoymağı düşündünmü?

– Yox, ata.

– Bəs nə etdin?

– Bir neçə imla, bir neçə tapşırıq, bir az tarix, bir az da coğrafiya ilə məşğul oldum...

Bunu eşidən yazıq Ata şeytan buynuzlarından yapışıb qoparmaq istərcəsinə tutdu:

– Belə bir uşaq dünyaya gətirmək üçün nə edə bilərdim? Ananla mən sənə pis bir təhsil vermək, sənə pis bir nümunə göstərmək, səni böyük, pis bir şeytan etməyə çalışmaq üçün illərlə özümüzü qurban verdiyimizi düşünəndə! Amma yox! Cənab vəsvəsəyə buna uymaq əvəzinə problemlər yaradır! Böyüyəndə nə edəcəksən?

– Xeyirxah şeytan olmaq istərdim. – Balaca şeytan cavab verdi. Əlbəttə, anası ağlayırdı, atası isə onu cəzalandırırdı. Ancaq heç bir şey edilə bilmirdi: balaca şeytan inadkar idi.

Nəhayət, atası ona dedi: "Yazıq balam, mən səndən ümidsizəm. Səndən bir şey etmək istərdim, amma bunun mümkün olmadığını görürəm. Yalnız bu həftə fransız essesi yazmaqla birinci yeri tutmusan! Buna görə səni məktəbdən götürüb şagirdliyə verməyə qərar verdim. Sən heç vaxt balaca şeytandan, qazanxana maşinistidən başqa heç kim olmayacaqsan... Heyif! amma, bunu özün istədin!



***Pier Qripari (1925-1990)***

***Pier Qripari 7 yanvar 1925-ci ildə Parisdə mühəndis ailəsində anadan olub. Atası yunan, anası isə fransız idi.***

***Pier bədii yaradıcılığa erkən yaşlarından başlayıb. Lakin 1950-ci illərin sonlarına qədər əsərlərinin nəşr üçün uyğun olduğuna inanmırdı. Özünü ədəbiyyata həsr etməyə qərar verən Pier işini tərk edir. Ancaq əsərlərini dərc edə bilmədiyi üçün yenidən qazanc axtarır və Milli Elmi Araşdırmalar Mərkəzinin kitabxanasında işləməyə başlayır.***

***Qripari demək olar ki, hər janrda bədii əsər yazıb. Milli ədəbi irs haqqında mükəmməl biliklərə malik olan Pier Qripari mif və folklordan geniş istifadə edib, onun yaradıcılığına elmi fantastika da yad deyil.***

Həqiqətən də, ertəsi gün balaca şeytan məktəbə getmədi. Atası onu böyük bir mərkəzi qazanxanaya göndərdi, burada həyatında çox, çox pis olan iyirmiyə yaxın insanın qaynadığı böyük bir qazanın altında atəşi harlamağı tapşırdı.

Ancaq burada da balaca şeytan onlara rahatlıq vermədi. O, kasıb, lənətlənmiş insanları sevirdi və bacardıqca çox isti olmaması üçün atəşin altını aşağı edirdi. Onları düşüncələrindən ayındırmaq üçün gülməli hekayələr söyləyib onlarla danışırdı və onlardan soruşurdu "niyə buradasınız?" Onlar isə cavab verirdilər: "öldürdük, oğurluq elədik və ya hər ikisini etdik".

– Bəs Allah haqqında yaxşıca düşünsəydiniz, onda necə? – kiçik şeytan soruşdu. Bəzən hər şeyin düzələ biləcəyini düşünmürsüz?

– Vay, yox! – dedilər. – Nə qədər ki, biz buradayıq, bu, əbədidir!

– Fərqi yoxdur, atəş çox isti olana qədər bu barədə bir az düşünün...

Bu barədə düşündülər və hətta bəziləri bir neçə dəqiqə düşündükdən sonra birdən-birə yox oldular! Hop! – sabun köpüyü kimi. Artıq görünmürdülər. Onları bağışlayan mərhəmətli Allah idi. Bu, böyük şeytan qazan nəzarətçisinin illik yoxlama səfərini etdiyi günə qədər davam etdi. O, balaca şeytanın nəzarət etdiyi qazana yaxınlaşanda bəhk səs-küy saldi!

– Bu nədir belə? Bu qazanda iyirmi bir nəfər olmalıdır! Mən isə yalnız on səkkizini saya bildim! Bu nə deməkdir? Atəş az qala sönür! Bu nə işdir? Yəni burada artıq cəhənnəmin əsər-əlaməti yoxdur, mavi sahil olub? İrəli, daha sürətli, tez olun üfürün ki, qazanın altı qaynamağa davam etsin!.. Sənə gəlincə, balaca dostum (o, gənc şeytana müraciət etdi), sən atəşi harlaya bilmədiyin üçün səni kömür mədəninə göndərəcəyik!

Ertəsi gün balaca şeytan kömür mədənində işləyirdi. Bir kərənti ilə silahlanaraq böyük kömür parçaları çıxardı və bir tunel qazdı. Bu dəfə ürəkdən işlədiyi üçün bundan məmnun idi. Əlbətdə ki, bu kömürün qazanlar üçün nəzərdə tutulduğunu bilirdi, amma bu, onun təbiəti idi ki, hər işi ürəkdən edirdi və o həmin işi pis edə bilməzdi. Bir dəfə antrasit damarında bir şey qazarkən birdən hər yer işıqla doldu. O, aşağı baxdı, onun yaratdığı çuxura baxdı və qırmızı qoşqu ilə kiçik yaşıl qatara minibçıxan canlı insanlarla dolu platforması olan böyük, parlaq işıqlı yeraltı zalı gördü. Bura Metro idi!

– Əla! düşündü. Mən insanların yanındayam! Xeyirxah olmağımda kömək edəcəklər! Çuxurdan çıxdı və platformaya sıçradı. Ancaq onu görən kimi insanlar dəhşətlə qışqıraraq qaçmağa tələsdilər. Basabasda əzilmə meydana gəldi, uşaqlar boğuldu və qadınlar ayaqlar altında tapdalandı. Balaca şeytan nə qədər qışqırsa da, "Yerinizdə qalın! Qorxmayın!" Özü öz səsini belə eşidə bilmirdi. İnsanlar ondan daha yüksək səslə qışqırırdılar... On dəqiqədən sonra stansiya boşalmışdı, ölü və yaralılardan başqa heç kəs yox idi. Nə edəcəyini bilməyən şeytan düz getdi, pilləkənlərlə, iki pilləkənlə qalxdı, qapını itələdi və çöldə çıxdı. Ancaq onu gözləyən yanğınsöndürənlər onu yanğın hortumundan püskürtdülər. O qarşı tərəfə qaçmağa çalışdı, ancaq polislər ona dəyənəklərlə hücum etdilər. Uçmağa çalışdı, polis helikopterləri artıq onu aşkarladı. Xoşbəxtlikdən, lyuk çuxuru açıq idi, balaca şeytan bunu gördü və içəriyə sıçrayaraq qaçdı.

Bütün günü çirkli su ilə dolu yeraltı keçidlərdən keçdi. Yalnız gecə yarısı yuxarı çıxdı və dar qaranlıq küçələrdə gəzməyə başladı, öz-özünə dedi:

– Mənə kömək edəcək birini tapmalıyam! Pis olmadığımı onlara necə başa salım? Bu sözləri deyəndə yaşlı qadın göründü və ona tərəf gəlirdi. Yaşlı qadın dönüb dedi:

– "Nə olub sənə bala? Niyə hələ yataqda deyilsən?

– Xanım, – balaca şeytan dedi, – Mən xeyirxah olmaq istəyirəm. Nə etməliyəm?

Bu zaman yaşlı qadın ona daha yaxından baxdı və şeytanın iki buynuzunu və qanadlarını gördü. Kəkələməyə başladı: "Xeyr! Xeyr! Xahiş Edirəm, Ya Rəbb! Artıq bunu etməyəcəyəm!

– Artıq nə etməyəcəksən?"kiçik şeytan soruşdu. Ancaq qadın cavab vermədi. Huşunu itirdi.

– Bəxtim gətirmədi, şeytan düşündü. Olduqca mülayim görünürdü... Bir az daha gəzdi və Broka küçəsindən keçərkən işıqlı bir kafe gördü. Yaxınlaşdı və şüşə qapıdan artıq bağlanan və yatmağa hazırlaşan Baba Səidi gördü. Şeytan cəsarətlə pəncərəni döydü:

– Bağışlayın, cənab...

– Artıq gecdir! Baba Səid dedi.

– Amma mən istərdim ki...

– Sənə deyirəm, bağlıdır!

– Xeyr bir şey içmək üçün gəlməmişəm, Mən xeyirxah olmaq istəyirəm!

– Çox gecdir! Sabah gəl!

Balaca şeytan ümidsiz idi. Artıq cəhənnəmə qayıdıb hamı kimi cani olubolmadığını düşünməyə başlamışdı, birdən kişi addımlarını eşitdi. "Bu mənim son şansımdır" deyə düşündü. Səsin gəldiyi istiqamətə qaçdı və Bulvarın küncündə dayandı. Qara bir kölgə ona tərəf getdi. Qadın kimi idi, amma əsgər kimi uzun addımlarla yeriyirdi. Əslində, xəstəni ziyarət etdikdən sonra geri qayıdan bir keşiş idi. Balaca şeytan ona yaxınlaşdı:

– Bağışlayın, cənab...

– Bəli? Keşiş başını qaldırdı, qorxudan olduğu yerdən tiksindi və şeytanın anlamadığı latın dilində bir şey fısıldayaraq üzünün qarşısında fərqli jestlər etməyə başladı. Şeytan nəzakətli olduğu üçün keşişin bitirməsini gözlədi və sonra dedi:

– Bağışlayın, cənab. Mən balaca bir şeytanam və xeyirxah olmaq istərdim. Nə etməliyəm? Keşiş gözlərini geniş açdı:

– Məndən soruşursan ki, nə etməlisən?

– Bəli. Mənim yaşımda xeyirxah olmaq üçün nə etmək lazımdır?

– Sən ata-anana qulaq asırsan? – keşiş tərəddüd etmədən cavab verdi.

– Xeyr, cənab. Valideynlərim yaramaz olmağımı istəyirlər! Bu dəfə keşiş anlamağa başladı.

– Allahım, bu həqiqətdir! Ancaq belə bir hadisə! Belə bir hadisəni ilk dəfə eşidirəm... Ən azından səmimisən?

– Bəli, cənab!



**Fransız dilindən tərcümə etdi:**
***Elvira İBRAHİMOVA,***
***Tərcümə fakültəsi, B20-451-ci qrup***

# Onlara gülmək olmaz

"Dantenin yubileyi"ndə Xalq yazıçısı Anar sual verir: "Düzgün seçim etmisən? Öz həyat missiyanı tapmısan?"

Müəllimimiz deyəndə ki, Akademik Milli Dram Teatrında "Dantenin yubileyi" əsəri əsasında eyniadlı tamaşa hazırlanıb, çox sevindim. Kitab oxuyanda rejissor özün olursan, teatrda isə hadisələri başqa birinin baxış bucağından görürsən. Teatr canlıdı, onu hiss etmək və böyük heyranlıqla izləmək lazımdır. Xülasə, səhnədə ilk gördüyümüz narıncı rəngli sovet avtobusudur. Bütün hadisələr də elə onun ətrafında baş verir. Əsərin baş qəhrəmanı Feyzulla Kəbirlinskidir (Sabir Məmmədov). Onu sənətində uğursuz bir aktyor kimi təsvir edirlər. Mənsə tam əksini düşünürəm, teatra illərini vermiş bu aktyor sənətə



ürəkdən bağlıdır və işini sevərək icra edir. Buna baxmayaraq, ətrafındakı insanlar onu qiymətləndirmir, lazımi hörməti göstərmirlər. Teatr kollektivi onu ələ salır, məsxərəyə qoyur.

Tamaşa aktyorların məşq prosesi ilə başlayır və göstərilir ki, Kəbirlinskinin çıxışı sadəcə "Bu gecə. Bu qoca. Bu ocaq" sözlərindən ibarətdir, amma onu düzgün deyə bilmir. Rejissor isə elə hey bu yaşlı adamı danlamaqla məşğuldur. Səhnədə görkəmli aktyor, xalq artistimiz Sabir Məmmədov mimikaları, jestləri, pafosları ilə Kəbirlinskinin hisslərini – kədərini, məyusluğunu, utanmasını bizə elə gözəl çatdırırdı ki, heyran olmamaq mümkün deyildi. Həyatda xarakterсə Kəbirlinski kimi adamlar çoxdur, onlara gülmək yerinə yazığım gəlir. Və düşünün ki, evdə də, işdə də bu adamı sayan yoxdur. Oğlu ilə eyni sahədədir, o da atasından utanır, yoldaşı Həcər də (Sənubər İskəndərli). Həcər onun özünə bütün əsəbini töksə də ətrafa qarşı həyat yoldaşının tərəfini həmişə saxlayır, onun haqqında artıq-əskik danışmalarına imkan vermir.

Feyzulla oğlu Eldarın ondan utandığını bilir, onu övladlığa götürdüklərini etiraf etmək istəyir, lakin Həcər buna imkan vermir. Tamaşada müasir dövrümüzlə səsləşən bir neçə məqam da var. Eldarın timsalında müasir istedadlı gənclərin yaxşı təhsil almaq üçün xarici ölkələrə can atdığını görürük. Yaraşıqlı aktyor Cavad Cabbarov (Anar Heybətov) nüfuz sahibidir, hər kəs ona heyrandır, rejissorlarla münasibəti çox yaxşıdır. Kəbirlinskinin halına acıyıb kömək etməyə çalışsa da, hərdən o da onu aşağılamaqdan geri qalmır. Finalda gənclər Kəbirlinskiyə yalançı dəvətnamə yazıb yoldaşı Həcərlə Dantenin yubileyinə göndərirlər, amma yubiley olmadığını görəndə kor peşman geri qayıdırlar.

Ümumilikdə tamaşa çox maraqlıydı, tamaşa boyu aktyorların italyan musiqilərini canlı səsləndirmələri, kədərli aktyorun "şən dostları" səhnəyə başqa bir rəng qatırdı. Dialoqları və remarkaları aktyorlar kitab oxuyurcasına birbaşa nəql edirdilər. Başlayan andan bitənə qədər tamaşadan zövq aldım. Kəbirlinskinin həyatı uğursuz kimi göstərilsə də, məncə uğurluydu. Sənətinə vurğun, ailəsinə sadiq, qürurlu ataydı. Səhnədə eşitdiyimiz bir cümlə var ki, Kəbirlinski deyir: "Ötən günə gün çatmaz". Həyatdan zövq alaraq anı yaşa. Bəziləri deyir ki, o düzgün peşə seçməmişdi, epizodik rollarının belə öhdəsindən gələ bilmirdi. Amma hər şeyə rəğmən, sənət üçün yaşayırdı. Bu sevgi onun canında varıydı. Səhnə alır, verilişlərdə iştirak edir, dublyaja gedir, halal zəhməti ilə pul qazanırdı. Lakin sözsüz ki, insan həyatının hansısa bir nöqtəsində o uğuru mütləq tapır.

Bu yaxınlarda rektorumuz, Xalq yazıçısı Kamal Abdullanın çox gözəl bir fikrini oxudum. Yazır ki, "Bütün zamanların çox gözəl bir qanunu var– tarazlıq qanunu. İşdə bəxtin gətirmir, evdə xoşbəxtsən, evdə günün qaradır, camaat arasında hörmətin var. Yaza bilmirsən, bülbül kimi ötürsən, danışa bilmirsən yazırsan. Şeir alınmır nəsrə keçirsən. Nəsr alınmır, pyesə keçirsən. Heç biri də alınmayanda – memuara".

Gələcəyimizi yaratmaq öz əlimizdədir. Seçdiyimiz sənət, peşə, ixtisas bizi təmsil edir. Özümüzə aid olanı, bizim üçün həqiqətən doğru olan yolu bizdən başqa heç kim bilə bilməz. Əsas məsələ odur ki Feyzulla Kəbirlinski kimi sevdiyiniz işi görün, gələcəkdə "kaş ki" deməmək, peşman olmamaq üçün.




***İnarə ABDULLAYEVA,***
***Təhsil 1 fakültəsinin***
***III kurs tələbəsi***

## Tələbələrimiz Laçın və Cəbrayılda təcrübə keçirlər

Azərbaycan Dillər Universitetinin tələbələri qayıdışın başlanğıcı olan Cəbrayıl rayonu Cocuq-Mərcanlı kənd məktəbinə və 44 günlük Vətən müharibəsində işğaldan azad olunmuş Laçın rayonu Zabux kənd tam orta məktəbinə pedaqoji təcrübə keçmək üçün yola düşüblər.




Təhsil-1 və Təhsil-2 fakültəsinin tələbələri Gülşən Babayeva, Gülnar Hüseynova, Pəri Kazımova və Rəqsanə İsmayılova 1 ay müddətində pedaqoji təcrübələrini adıçəkilən məktəblərdə keçəcəklər.

Qeyd edək ki, ADU-nun rektoru, akademik Kamal Abdullanın ideya müəllifi olduğu layihə hər iki məktəb və rayon üçün bir ilkdir.

ADU-nun Müəllim Həmkarlar Təşkilatının sədri, dosent Misgər Məmmədov, Əlavə təhsil, təcrübə və karyera şöbəsinin müdiri Nicat Aşurov məktəblərə səfər edib, məktəb rəhbərliyi və şagirdlərlə görüşüblər.

## Zəfərimiz dillərdə

Azərbaycan Dillər Universitetinin M.Hüseynzadə adına 19 saylı tam orta məktəbdə təcrübədə olan Təhsil-2 fakültəsinin təcrübəçi tələbələri Filologiya fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının dosenti Vəfa Babayevanın təşkilatçılığı ilə 44 günlük Qarabağ müharibəsinə həsr olunmuş "Zəfərimiz dillərdə" adlı tədbir keçirib.

Tədbirdə iştirak edən ADU-nun tədris işləri üzrə prorektoru, dosent Kifayət Hacıyeva, Təhsil 2 fakültəsinin dekanı, dosent Salman Nuriyev, Əlavə təhsil, təcrübə və karyera şöbəsinin müdiri Nicat Aşurov, Linqvokulturologiya kafedrasının müdiri, dosent Vüsalə Ağabəyli və başqaları tədbirin əhəmiyyətindən danışıblar. Öz növbəsində, 19 saylı məktəbin rəhbərliyi təcrübəçi tələbələrin fəaliyyətini, şagirdlərlə iş prinsipini, universitet-məktəb əməkdaşlığını xüsusi vurğulayaraq öz təşəkkürlərini bildiriblər.

## Təcrübəçi tələbələr bilik yarışması keçirib

Azərbaycan Dillər Universitetinin Gültəkin Əsgərova adına Məktəb– Lisey Kompleksində pedaqoji təcrübədə olan, Filologiya fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının baş müəllimi, metodist Gülxar Hüseynova və Təhsil 1 fakültəsinin nəzdində Alman dilinin leksikologiyası  və üslubiyyatı kafedrasının baş müəllimi, metodist Gülşən Əhmədovanın rəhbərliyi ilə 415-ci qrup tələbələrinin təşkilatçılığı ilə 8-ci siniflər arasında Alman dili fənni üzrə keçirilən "Alman dilli ölkələrin biliciləri" adlı bilik yarışması keçirilib.

Tədbirin məqsədi alman dilli ölkələrin tarixi, mədəniyyəti, ənənələri ilə şagirdləri tanış etmək, bu ölkələri sevdirmək və alman dilinə marağın artrmasını təmin etməkdir. Tədbirdə çıxış edən məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Fərqanə Əliyeva tədbirin təşkilatçı tələbələrinə minnətdarlıq edib.

Sonda qalib komandanın iştirakçılarına və digər iştirakçılara sertifikat və hədiyyələr təqdim olunub.

## "The English Language Day" günü

Azərbaycan Dillər Universitetinin 20 nömrəli məktəb-liseydə təcrübə keçən  421b qrup tələbələri "The English Language Day" gününə həsr olunmuş tədbir keçirib. Tədbirdə pedaqoji təcrübə keçən tələbələrin hər birinə aid şagird qrupları İngilis dili gününə həsr etdikləri şeir söyləyib, mövzu ilə bağlı maraqlı çıxış ediblər.

Sonda "King Lear"adlı tamaşa nümayiş olunub.

## Tələbələrimiz tamaşa hazırlayıb

Akif Abdullayev adına 211 saylı orta məktəbdə ADU-nun Filologiya fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının baş müəllimi İlhamə İsgəndərovanın rəhbərliyi altında 417a qrup tələbələrinin təşkilatçılığı ilə şagirdlər tərəfindən Xalq yazıçısı Ananın "Keçən ilin son gecəsi" pyesi səhnələşdirilib. Tamaşanı məktəb kollektivi ilə yanaşı, Azərbaycan Dillər Universitetinin Təhsil 2 fakültəsinin dekan müavini Namiq Əsədov, Təhsil 2 fakültəsinin nəzdində Pedaqogika kafedrasının baş müəllimi Naibə Xiyalova, Filologiya fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının müəllimi Nuranə Bədiyeva, Əlavə təhsil, təcrübə və karyera şöbəsinin müdiri Nicat Aşurov izləyiblər.

## Multikultural dəyərlər

Azərbaycan Dillər Universitetinin 56 nömrəli tam orta məktəbdə  Xarici dillərin tədrisi metodikası kafedrasının müəllimi  Zəhra Qəhrəmanovanın rəhbərliyi ilə pedaqoji təcrübədə olan tələbələr tərəfindən "Multikultural dəyərlər" adlı tədbir keçirilib.

Tədbirdə şagirdlər mədəni dəyərlər, onların zənginliyi, kökləri və töhfələri haqqında ətraflı məlumat veriblər. Həmçinin, ana dili ilə yanaşı, bir sıra xarici dillərdə şeirlər və mətnlər səsləndirilib, şagirdlər tərəfindən fləşmob və debat təşkil olunub. İngilis dili və onun əhəmiyyətinə dair faydalı məlumatlar təqdim olunub. Tədbir Ulu Öndər Heydər Əliyevin "Azərbaycan" şeirini səsləndirdiyi videoçarx ilə yekunlaşıb.

## Beynəlxalq İngilis dili və Kitab Günü

Azərbaycan Dillər Universitetinin S.Poladi adına 159 saylı tam orta məktəbdə pedaqoji təcrübədə olan tələbələri məktəbin şagirdləri ilə birgə Beynəlxalq İngilis dili və Kitab Gününə həsr olunmuş tədbir keçiriblər.



Tədbir iki dildə – ingilis dilində Səadət Təhməzzadə, ana dilində isə Ləman Qurbanova tərəfindən aparılıb. Şagirdlər tərəfindən ingilis dilinə maraq yaradan səhnələr, şeirlər, musiqilər, həmçinin rəqslər nümayiş olunub.

## ADU-nun tələbələri ekskursiya təşkil edib

Azərbaycan Dillər Universitetinin 177 nömrəli tam orta məktəbdə metodist Aygün İbrahimovanın rəhbərliyi ilə pedaqoji təcrübədə olan tələbələrinin təşəbbüsü ilə məktəbin 8c sinif şagirdləri üçün ekskursiya təşkil olunub.

Təhsil-2 fakültəsinin tələbələri – Humay Novruzlu və Lalə Əlizadənin təşəbbüsü ilə sözgedən sinifin şagirdləri Azərbaycan memarlığının incilərindən olan Şirvanşahlar sarayı, Qız qalası və Miniatür Kitab Muzeyində olublar.

Ekskursiya zamanı məktəblilər tarixi-memarlıq abidələri – Şirvanşahlar sarayının tarixi və Qız Qalası ilə yaxından tanış olublar. Miniatür Kitab Muzeyində isə onlar bu unikal muzeydə yerləşən müxtəlif dövrlərdə və dünyanın fərqli ölkələrində çap edilmiş kiçik ölçülü miniatür kitablarla tanış olub, miniatür kitablar haqqında maraqlı məlumatlar əldə ediblər.

## Uğur nədir?

Azərbaycan Dillər Universitetinin Hədəf Liseyində metodist Mirsadiq Cəfərovun rəhbərliyi ilə təcrübədə olan Təhsil-2 fakültəsinin İngilis dili müəllimliyi ixtisası üzrə təhsil alan 4-cü kurs tələbələri -Sevinc Aşralıyeva, Günay Ramazanova, Sevinc Abuşova və Pərvin Hüseynli tərəfindən "Dəyərlər həftəsi" konsepti çərçivəsində "Uğur nədir?" adlı tədbir keçirilib.

Açılış nitqi ilə çıxış edən tələbə Sevinc Aşralıyeva tədbirin məzmunu və məqsədi barədə məlumat verib, uğur haqqında, tarixdə uğurlar qazanaraq izlər qoymuş bir sıra şəxsiyyətlər barəsində məlumat verib. Sonra şagirdlər arasında interaktivliyi təmin etmək məqsədilə təcrübəçi tələbələr tərəfindən intellektual oyun keçirilib. Komandalar şəklində təşkil olunan oyunun sonunda qalib komandaya sertifikat təqdim olunub.

## Aprel döyüşləri böyük zəfərin başlanğıcı

Azərbaycan Dillər Universitetinin Nizami rayonu, 214 saylı tam orta məktəbində pedaqoji təcrübədə olan IV kurs tələbələri Təhsil -1 fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının metodisti Aliyə Ağamirzəyevanın rəhbərliyi ilə "Aprel döyüşləri böyük zəfərin başlanğıcı" mövzusunda tədqimat keçirilib.



Təhsil -1 fakültəsinin 407B qrup tələbəsi Fəridə Xudayarovanın çıxışı ilə başlayan təqdimatda Aprel döyüşləri haqqında geniş məlumat verilib, tələbə və şagirdlər tərəfindən vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib, mahnılar ifa edilib. Sonra Aprel döyüşlərinə həsr olunmuş videoçarx nümayiş olunub.

214 saylı tam orta məktəbin Məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçısı Arzu Alış tədbirin ərsəyə gəlməsində əməyi keçənlərə təşəkkürünü bildirib, Aprel döyüşləri haqqında fikirlərini bölüşüb. Tədbir Təhsil-1 fakültəsi nəzdində Xarici dillərin tədrisi metodikası kafedrasının müəllimi Aliyə Ağamirzəyevanın çıxışı ilə yekunlaşıb.

## Save The Earth

Azərbaycan Dillər Universitetinin Nəsimi rayonu İlqar Əbilhəsənov adına 42 saylı məktəbdə təcrübə keçən Təhsil 2 fakültəsinin 419a və 419b qrup tələbələrinin  məktəbin İngilis dili müəllimləri – Nabat Əyyubova, Pərvanə Hüseynova, Sevinc Ağayevanın birgə təşkilatçılığı ilə müxtəlif siniflərlə "Save The Earth" adlı tədbir keçirilib.

Tədbirdə ingilis dilində mahnılar səsləndirilib, şagirdlər tərəfindən rəqslər, ekologiyaya vurulan ziyanla bağlı səhnəcik nümayiş olunub. Həmçinin "Save The Earth" tədbiri ilə əlaqədar posterlər, divar qəzeti, maraqlı təbiət şəkilləri tərtib olunaraq məktəbin foyesində nümayiş etdirilib.

## Dünya bizim evimizdir

Azərbaycan Dillər Universitetinin Hədəf STEAM liseyində metodist Mirsadiq Cəfərovun rəhbərliyi ilə pedaqoji təcrübədə olan Xarici dil müəllimliyi (İngilis dili üzrə) ixtisası üzrə təhsil alan 4-cü kurs tələbələri –



Nigar Nəsibova (419a), Ayşə Dəmirçiyevanın (420b) təşkilatçılığı ilə "Dünya bizim evimizdir" adlı tədbir keçirilib. Tədbirin məqsədi şagirdlərə ətraf mühiti də evimiz kimi təmiz saxlamağa yönəltmək, dünyanın da bizim bir evimiz olduğunu əks etdirən fikirlər bölüşmək və əyani vasitələrlə ətraflı izah etmək idi.

# Kitablar aləmi: elm, bilik və yenilik məkanı

***İnformasiya əsri adlandırılan XXI əsrdə kitabxanaların funksiyaları xeyli artaraq yeni istiqamət alır. Müasir kitabxanalar tələbatı günbəgün artan oxucuların dünya informasiya məkanına daxil olmaları, ümumbəşəri intellektual potensialdan operativ istifadə etmələri üçün imkanları getdikcə genişləndirir. Bəs Azərbaycan Dillər Universitetinin kitabxanası qarşıya qoyulan yeni tələblərin öhdəsindən necə gəlir? Bu kimi sualları cavablandırmaq üçün ADU-nun Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin (EKİXM) direktoru Cəmilə Əliyevaya müraciət etdik.***

***Müsahibimizlə söhbətə kitabxananın tarixindən başladıq:***

– Kitabxanamız 1948-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kitabxanasından köçürülmüş 7000-ə qədər kitab və 4 nəfər işçi ilə fəaliyyətə başlayıb. 1959-cu ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutu ilə birləşdiyi üçün hər iki ali təhsil müəssisəsinin kitabxanası birləşdirilərək M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun kitabxanası adı altında R.Behbudov, 134 ünvanında fəaliyyət göstərməyə başladı.

1973-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə hər iki institut ayrılaraq yenidən müstəqil ali məktəb kimi fəaliyyətə başladıqdan sonra kitabxanadakı kitablar profilə uyğun bölünərək hər iki ali təhsil müəssisəsinin kitab fondunu təşkil etdi.

2000-ci ildə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Dillər İnstitutunun profili genişləndirilməklə Azərbaycan Dillər Universiteti yaradıldı. Kitabxananın yeni modelini yaratmaq məqsədilə ilkin addım kimi universitetin Təbriz küçəsindəki yeni binasında kitabxana üçün kifayət qədər yer ayrıldı. Beləliklə, uzun inkişaf yolu keçən kitabxanamız illər boyunca formalaşaraq Azərbaycanda çoxdilli, dərslik və digər (xarici) materiallara görə ən böyük universitet kitabxanasına çevrildi.

**– Kitabxananın maddi-texniki bazasını inkişaf etdirmək, əlverişli kitabxana xidmətini həyata keçirmək məqsədi ilə hansı işlər görülüb?**

– Son illər ADU-nun Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin maddi-texniki bazası xeyli möhkəmləndirilib. 2023-cü ildə universitetin əsas binasında yeni təmirli, müasir mebel və texniki avadanlıqla təchiz edilmiş Qiraətxana isifadəyə verilib. 2024-cü ilin yanvar ayında isə müasir texniki avadanlıqla təhciz edilmiş yeni Oxu zalı və Elektron xidmət zalı istifadəyə verilib. Beləliklə, kitabxanamız müasir dünya standartlarına cavab verən, oxucuların informasiya tələbatını qüsursuz ödəyən elmi-mədəni informasiya mərkəzinə çevrilib. Ali məktəbdə işləyən bütün professor-müəllim heyəti və tələbə kontingenti kitabxanamızın oxucularıdır. Son illərdə kitabxanamız müasir avadanlıqlar, informasiya texnologiyaları ilə təchiz edildiyindən, internetə qoşulmuş geniş qiraət zalları açıldığından oxucularımızın sayı xeyli çoxalıb.



**– Müasir dövrdə kitabxanaların zövqlə tərtibatı oxucuların kitabxanaya cəlb edilməsinə təsir göstərən amillərdəndir. Kitabxanaya oxucu cəlb etmək üçün kitabxananın daxili tərtibatına necə fikir verilib?**

– Hər zaman olduğu kimi, müasir dövrdə də kitabxana informasiyaya, ideyalara və təxəyyül məhsullarına çıxışı təmin edən vasitədir. Kitabxanaya oxucu cəlb etmək üçün kitabxanamızın daxili tərtibatına xüsusi fikir verilib. Bu baxımdan, kitabxanamızın zalları estetik görünüşü, müasir avadanlıq və tərtibatı ilə fərqlənir. Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin xidmət xüsusiyyətləri, fəaliyyət layihələri, maraq klubları haqqında məlumatlar həm vestibüldə, reklam lövhəsində, həm də kitabxananın veb-səhifəsində yerləşdirilib.

**– Təmirdən sonra kitabxanada hansı yeni xidmətlər təklif olunur?**

– EKİXM-nin əsas məqsədlərindən biri tədris prosesinə informasiya dəstəyi göstərməkdən ibarətdir. Təmirdən sonra bu proses üç istiqmətdə həyata keçirilir: birincisi, təlim-metodik vəsaitlərin tərkibinə daxil olan dərs vəsaitləri və dərsə aid elektron resurslar kataloqlaşdırılaraq istifadəyə verilib. İkincisi, ADU-nun professor-müəllim heyətinin elmi-tədqiqat işləri, eləcə də dərslik və dərs materialları universitetimizə məxsus ünvanlı DSpace elektron arxivdə yerləşdirilib və sərbəst girişlə istifadəçilərin ixtiyarına verilib. Üçüncüsü, təlim-tədris prosesində məlumat bazaları və qabaqcıl nəşriyyat evlərinin veb-saytlarında yerləşdirilən elektron resurslardan geniş istifadə olunmasına imkan yaradılıb.

EKİXM tələbələrə bir çox tədris materialları ilə yanaşı, həmçinin lazımi məlumatın əldə olunmasına yardım edəcək mütəxəssis məsləhətləri təklif edir. "Birinci kursların ev kitabxanasına hədiyyə", "Gəlin oxuyaq" adlı layihələri istiqamətində il boyu tələbələrin ev kitabxanasının formalaşması üçün Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin "Hədiyyə fondu"ndan kitablar hədiyyə olunur.

**– Tələbələrin kitabxanadan səmərəli istifadə etməsi üçün hansı şərait var?**

– EKİXM geniş kitab dünyasından ibarət zəngin bir kitabxanaya malikdir. İncəsənətdən elmə, ədəbiyyatdan dövri mətbuata qədər minlərlə əsər kitabxanada araşdırmaya, öyrənməyə, düşünməyə və əylənməyə kömək edir. "Oxucu xidmətləri", "Məsləhət xidməti", "Evə kitab verilişi xidməti" tədris ili boyunca bütün kurslara istifadəçilərin sorğusuna uyğun olaraq resurslar təqdim edir, oxu saatları, tematik dəyirmi masalar keçirilir. İngilis, alman, fransız və ispan dilləri dərslərinin müəyyən saatlarında bu dillərin mədəni və ədəbi kolleksiyalarına aid vəsaitlərin surəti çıxarılaraq oxuculara təqdim edilir. Həmçinin elektron resursların əldə edilməsi üçün tələbələrə informasiya axtarışı texnikası və elektron resurslardan istifadə üzrə praktiki məşğələlər keçirilir. Kitabxananın Azərbaycan, rus və ingilis dillərində 15 dövri nəşr abunəsi var. Kolleksiya ehtiyaclara uyğun olaraq daim yenilənir.

**– Bu gün informasiya əsri adlandırılan XXI əsr əsas məlumat mənbəyi olan kitabxanaların qarşısında geniş imkanlar açır, keyfiyyətcə yeni vəzifələr qoyur. Müasir dövrdə kitabxanaçılar bu işin öhdəsindən necə gəlirlər?**

– EKİXM universitet icmasının biliyə can atan təbiətinə xidmət edən, tələbə və tədqiqatçıları maarifləndirən mühüm qurumdur. İnformasiyaya marağın və çıxışın çox dəyərli olduğu müasir dünyada millətlər bir-birlərindən üstünlüklərini biliklə müəyyən edirlər. XXI əsrdə əsas məlumat mənbəyi olan kitabxanalar gələcəyə biliklərin toplanmış qapılarını açır. Bu işdə kitabxanalarda və sənəd məlumat mərkəzlərində istifadəçi münasibətlərinin mənası araşdırılaraq müzakirə edilir və oxucu münasibətlərinin idarə edilməsi modeli qurulur.

Beləliklə, kitabxanalar və sənəd məlumat mərkəzləri daim dəyişən, qloballaşan rəqabətdə olduqları halda kitabxanaçılar öz üzərində şalışmaqla yeniliyi qarşılayır, yeni xidmət üsullarını öyrənmək üçün treninq və seminarlarda iştirak edirlər. Kitabxanamızın yarandığı vaxtdan bu günə olan bu səyahəti mədəni təkamüldə fəaliyyətimizin əsas istiqamətini vurğulayır.

**– Kitab fondunun yenilənməsi istiqamətində hansı işlər görülür?**

– Kitabxana fondu ümumilikdə təkcə kitablardan ibarət deyil, bura həm də qəzet və jurnallar, disklər (CD-ROM), elektron kitablar, videokassetlər, audiovizual materiallar və s. daxildir. Kitabxana fondunun formalaşdırılması, sistemləşdirilməsi, təsnifatı və onun idarə olunması, həmçinin müasir elektron vasitələrlə təminatı mühüm elmi-texniki əhəmiyyət kəsb edir.

Kitab fondunun yenilənməsi üçün fəaliyyət dairəsini getdikcə genişləndiririk. Əvvəlcə kitabxana fondunun inkişaf tendensiyalarını müəyyənləşdiririk: uyğun olan fondun əldə edilməsi üçün prioritet sahələri müəyyənləşdirir, istifadəçilərin informasiya ehtiyaclarını öyrənirik. Kitab fondunun yenilənməsi, əsasən, universitet maliyyəsi, dövlət təşkilatları və fərdi şəxslərin ianəsi hesabına olur. Kitabxana fondunun yenilənməsi, axtarış xidmətləri və s. kimi məlumatlar, zamandan və məkandan asılı olmayaraq 7/24 rejimdə oxucular tərəfindən kitabxananın resurslarına əlyetərliyin yüksək səviyyədə təmin olunması <https://adu.edu.az/az/kitabxana/> veb-sayt bağlantılar vasitəsilə izlənir.

**– Kitabxananın abunə olduğu onlayn məlumat bazaları hansılardır?**

– Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzi universitetin maliyyəsi və Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu ilə əməkdaşlıq çərçivəsində dünyanın bir sıra mötəbər məlumat bazalarına abunədir. Hər bir istifadəçi onlayn və ənənəvi dövrü mətbuat, EBSCOhost, Jstor, Elgaronline, Sciencedirect və s. kimi elmi məlumat bazasına universitetdə və evdə açıq istifadə imkanlarına malikdir.

**– Adətən kitabı insanın tərbiyəçisi, uğurlu həyatının hərəkətverici qüvvəsi adlandırırlar. Bəs həyatını kitablar arasında keçirən, kitabı sevməyi, qorumağı təbliğ edən kitabxanaçılar kitab barədə nə düşünür?**

– Kitab kifayət qədər sadə sözdür, amma özündə nə qədər böyük məlumat ehtiva edir. Kitabların olmadığı bir dünyanı təsəvvür etmək olduqca çətindir. Onun əsas məqsədi əsrlər boyu toplanmış biliyi qoruyub saxlamaq və nəsildən-nəslə ötürməkdir. Kitabın köməyi ilə əldə etdiyimiz biliklər bizə irəli getməyə imkan verir.

Kitabla dostluğum şəxsən mənə insanlarla necə dost olmağın, onları sevməyin, böyük anlamda cəmiyyətdə düzgün mövqe tutmağın yolunu göstərib. Ədəbi əsərlər insanın mənəvi dünyasına güclü təsir göstərir. Bu gün kitabları müxtəlif internet texnologiyaları əvəz etsə də, ənənəvi şəkildə çap olunmuş kitabla ünsiyyət daha yaxşı və xoşdur.

**– Kitabxananıza kitab hədiyyə edənlər varmı?**

– Bəli, kitabxanamıza kitab hədiyyə edənlər olur. Kitab hədiyyə edənlər arasında universitet əməkdaşları çoxluq təşkil edir. Bundan başqa, dövlət və kommersiya təşkilatları yeni dərc olunan nəşrlərini, tanınmış şəxslər fərdi kitabxanasını, Milli Kitabxana, Bakı Təhsil İdarəsi və s. qurumlar xeyli sayda kitablarını əvəzsiz hədiyyə edirlər.

**– Kitabxanada kütləvi tədbirlər, kitab təqdimatları keçirilirmi?**

– Kitabxanaların fəaliyyət planı və oxucu marağına uyğun olaraq tanınmış müəlliflərin kitab təqdimatlarını vaxtaşırı keçiririk. Fevral ayının 20-də ADU-nun Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin Qiraət zalında yazıçı Elxan Elatlı ilə görüş keçirildi. Görüşdə müəllif öz yaradıcılığı və tələbəlik illəri ilə bağlı maraqlı məqamları bölüşdü, yeni nəşrdən çıxmış "Şantaj" romanının təqdimatı keçirildi. Fevralın 23-də isə gənc yazar Meri Efendinin müəllifi olduğu "I Sat Alone by The Gate" kitabının təqdimatı keçirildi. Müəllif tələbələrlə Amerika təcrübəsini çox səmimi bir ortamda bölüşdü.

Kitabxanamızda keçirilən bu cür tədbirlər biz – ktabxana işçilərində də xoş təəssürat yaradır. Həmçinin EKİXM-də dövlət və milli bayramlar, anım günləri, konfrans, seminar və təlimlər keçirilir, ADU-nun fakültə və kafedralar ilə aktual mövzulara həsr olunmuş dəyirmi masalar təşkil edilir.

**Söhbətləşdi:**
***Sadiq ZAMAN***

# AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİNDƏ ALMAN İZLƏRİ

Azərbaycan Dillər Universiteti özünün 75 illik yubileyini qeyd edir. Qürur hissi ilə vurğulamaq istərdik ki, Azərbaycan Dillər Universitetinin tarixi birbaşa alman dili ilə bağlıdır. Belə ki, 1936-1937-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Dillər kafedrası üç müstəqil kafedraya - Azərbaycan dili, Rus dili və Xarici dillər kafedralarına bölündü.

Xarici dillər kafedrasının müdiri vəzifəsinə milliyyətcə alman olan Otto Neff təyin edildi. Yeni açılan kafedradakı müəllimlər əsasən alman dili mütəxəssisləri idi. O.Neff, P.Kromm, V.Rikqof və başqaları respublikada alman dili mütəxəssislərinin yetişdirilməsində mühüm rol oynamış ilk müəllimlər idi. O dövrdə dərslik çatışmadığı üçün tələbələrə kömək etmək üçün bütün müəllimlərin iştirakı ilə 1000 sözdən ibarət standart lüğət hazırlamaq qərara alınmışdı. Lüğətin ilk 200 sözünü tərtib etmək O.Urzanoviçə həvalə olunmuşdu. Rus qruplarında almanca-azərbaycanca lüğətə ehtiyac olmadığından O.Neffin dərsliyi ilə yanaşı Berxinanın "Alman dili" dərsliyindən də istifadə edilməsi məsləhət görülmüşdü.

1937-1938-ci tədris ilində Azərbaycan Pedaqoji İnstitutunda Xarici dillər fakültəsi açıldı və alman dili mütəxəssisi P.Kromm fakültənin dekanı təyin edildi.

Sonralar Xarici dillər kafedrasının bazası əsasında müstəqil İngilis, Alman və Fransız dili kafedraları yaranmışdır. Alman dili kafedrasına dosent N.Ağazadə və sonralar isə b/m. C.Cəfərov, Almaniyada namizədlik dissertasiyası müdafiə etmiş dosent Ə.Əliyeva, dosent S.Pepinova rəhbərlik etmişlər.

1973-cü ildə Azərbaycanda Xarici Dillər İnstitutu yaradıldıqdan sonra alman dilinin tədrisi yeni bir mərhələyə qədəm qoymuşdur.

1994-cü ildə vahid Alman dili kafedrasının bazasında 3 müstəqil kafedra - Alman dilinin leksikologiyası və üslubiyyatı, Alman dilinin fonetikası və tarixi, Alman dilinin qrammatikası kafedraları fəaliyyət göstərmişdilər.

27 sentyabr 2012-ci ildə ADU-nun rektorunun 103 saylı əmrinə əsasən Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrası və Alman dilinin fonetikası, qrammatikası və tarixi kafedrası ləğv edilərək onların bazasında Müasir alman dili kafedrası yaradılmışdır.

Universitetin rektoru, akademik Kamal Abdullanın 8 avqust 2017-ci il tarixli əmri ilə Alman dili kafedrasının bazasında iki kafedra - Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrası və Alman dilinin fonetikası və qrammatikası kafedrası yaradılmışdır. Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrası yarandığı gündən alman dilinin praktik və nəzəri aspektdə yüksək səviyyədə öyrədilməsini qarşısına məqsəd qoymuşdur.

Alman dili deyəndə ilk növbədə Cəfər Cəfərov yada düşür. Ensklopedik bilik sahibi, gözəl alim, iddiasız və sadə insan olan Cəfər müəllim uzun müddət Alman dili fakültəsinin dekanı, o vaxt vahid Alman dili kafedrasının müdiri, sonralar isə müəllim kimi böyük elmi-pedaqoji işlər görmüş, xarici dillər üzrə milli kadrların hazırlanmasında misilsiz xidmətlər göstərmişdir. O, Azərbaycanda alman dili məktəbinin banisidir.

Cəfər Cəfərov 1927-ci ildə Berlin Kommersiya İnstitutunu bitirmişdi. Sovet dövründə burada kapitalist iqtisadiyyatı qanunları işləmədiyini bildiyi üçün əlavə pedaqoji təhsil alıb, bu dili həvəslə tədris edirdi. Ömrünün mənalı illərini univesitetdə dilöyrənmə prosesində dünyəvi təcrübəyə əsaslanan "Şifahi Nitq Laboratoriyası"nı yaratmağa həsr etmişdi.




Cəfər Cəfərov həyatının xeyli hissəsini "Almanca-Azərbaycanca" lüğətin yazılmasına sərf etdi. 40000-dən artıq söz və ifadədən ibarət olan lüğət Azərbaycanda ikidilli lüğətlərin hazırlanmasında olduqca mühüm leksikoqrafik hadisəyə çevrildi. Lüğət C.Cəfərovun Azərbaycan xalqına verdiyi ən qiymətli töhfəsi idi. Həmin lüğət sonralar kafedranın dosenti mərhum Çərkəz Qurbanlı tərəfindən yenidən işlənərək Azərbaycan Respublikasının prezidenti İlham Əliyenin göstərişi ilə çap edilərək oxucuların ixtiyarına verildi.

Şeri, poeziyanı sevən Cəfər müəllimin tələbəsi olan Sərxan Abdullayev "Dil və bədii qavrayış" kitabını yazmaqla müəlliminin irsini davam etdirmiş oldu. S.Abdullayev və N.Seyidəliyevin kafedranın profilinə uyğun birgə hazırladıqları "Alman atalar sözləri və onların azərbaycanca, rusca qarşılıqları" adlı lüğətini əvəzolunmaz vəsait hesab etmək olar. Bundan başqa, Sərxan müəllim Aşıq Ələsgərin şeirlərinin tərcüməsində əmək sərf etmiş, kitabın redaktoru olmuş və ona ön söz yazmışdır. Bununla o, YUNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına salınan Azərbaycan aşıq sənətinin almandilli oxuculara tanınmasında öz töhfəsini vermişdir.

Kafedranın professor-müəllim heyəti auditoriyalarda dərs deməklə kifayətlənmir, ölkənin və çalışdığı universitetin elmi nüfuzunun yüksəlməsi və mövqeyinin möhkəmlənməsinin təmin edilməsi məqsədilə müxtəlif ixtisaslaşmış nüfuzlu jurnallarda məqalələr çap etdirirlər. Belə bazalar sırasına ilk Web of Science və Scopus kimi beynəlxalq elmmetrik verilənlər bazaları daxildir. Adıçəkilən elmmetrik bazalara daxil olan jurnallarda çıxış etmək məqalə müəlliflərinin ilə yanaşı, onların çalışdıqları universitet və institutların, təmsil etdikləri ölkələrin elmi nüfuzunu birbaşa müəyyən edən və son nəticədə, ölkənin inkişaf səviyyəsini göstərən əsas amillərdəndi. Bunun nəticəsidir ki, Azərbaycan Dillər Universiteti QS 2023 və QS 2024 sahələr üzrə dünya universitetləriniin reytinq cədvəlində "Müasir dillər" üzrə dünyada ən yaxşı 301-340 universitetlər qrupuna daxil olub. Bu uğurda kafedranın da payı vardır.

Qeyd etmək lazımdır ki, ADU-ya tez-tez Almaniya, Avstriya və müxtəlif ölkələrin universitetlərindən mütəxəssislər dəvət olunur ki, bu da Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrasının, universitetimizin dili öyrənilən ölkənin tədris sistemi ilə əlaqələrinin yaranmasında və inkişafında müəyyən rol oynayır. Müəllimlərimiz alman universitetləri, Höte İnstitutu və ADU-da fəaliyyət göstərən Germanistika İnstitutu ilə fəal əlaqə saxlayır, təqaüdlə Almaniyada ixtisasartırma kursu keçir, müxtəlif layihələr həyata keçirirlər.

Təkcə müəllimlərimiz deyil, tələbələrimiz də alman dilinin inkişafı üçün bacardıqlarını etməyə çalışırlar. "Heydər Əliyev ili" çərçivəsində Təhsil 1 fakültəsində "Alman dili müəllimliyi" ixtisası üzrə təhsil alan bütün tələbələr kafedranın profilinə uyğun layihə həyata keçirmişlər. ADU-nun rektoru, akademik Kamal Abdullanın ideya müəllifliyi və kafedra müdiri Xuraman Əsgərovanın rəhbərliyi "Heydər Əliyev 100. Sitatlar və kəlamlar" kitabı kafedranın Ümummilli Liderin yubileyinə hədiyyəsidir.

Kitabı hazırlamaqda əsas məqsəd gəncləri H.Əliyev irsi, siyasəti, şəxsiyyəti ilə daha yaxından tanış etmək idi. Bu gün Azərbaycan-Almaniya ikitərəfli münasibətlərinin bütün sahələrdə inkişaf etdiyi dövrdə ikidilli kitab ölkələrimiz arasında münasibətərin daha da yaxşılaşmasına, Heydər Əliyev simasında almandillli auditoriyada Azərbaycan obrazının yaranmasına öz töhfəsini vermiş olar.




Universitetimizdə hər ilin noyabr ayında kafedranın dosenti, G.M.Pirnəzərovanın rəhbərlik etdiyi "Alman dili Birliyi"nin təşkilatçılığı ilə "Alman dili günü" keçirilir. Tədbirdə Almaniya və Avstriyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri və Səfirliklərinin nümayəndələri iştirak edirlər. Artıq bu bayram ənənəvi xarakter alıb.

Milli-mənəvi dəyərlərin qorunub saxlanması üçün kafedra hər il dekabr ayında Milad yarmarkası təşkil edir. Tədbiri keçirtməkdə əsas məqsəd dili öyrənilən xalqın adət-ənənəsinə sadiq qalaraq tələbələrdə bayram əhval-ruhiyyəsi yaratmaqla yanaşı, onlarda sevgi və mərhəmət hissi aşılamaq, alman dilinə marağı artırmaq, komanda şəklində birlikdə işləmək bacarığını formalaşdırmaqdır. Xeyriyyə məqsədilə keçirilən yarmarkaya çıxarılmış məhsulların satışından əldə olunan vəsait Təhsil 1 fakültəsi nəzdində "Alman dili müəllimliyi" ixtisası üzrə təhsil alan tələbələrin təhsil haqqının ödənilməsinə yönəldilir.

Yüksək intelektə sahib olan abituriyentlərin universitetimizə marağını artırmaq, mövcud olan ixtisaslarla tanış etmək məqsədilə orta məktəblərdə pedaqoji təcrübə keçən tələbələrimiz təhkim olunduqları siniflərin şagirdlərini hər il universitetimizdə keçirilən tələbə-şagird elmi konfransında iştirak etmək üçün həvəslə hazırlayırlar.

Azərbaycan Dillər Universitetində alman dilini mükəmməl və daha dərindən öyrənmək üçün hər cür şərait vardır. 3 saylı binada (Tərcümə) fəaliyyət göstərən "Alman oxu zalı"ndan tələbələrimiz istədikləri bədii kitab və dərs vəsaitlərini, filmlərin disklərini əldə edə bilərlər. Burada mütəmadi olaraq DAAD-nin ADU-dakı ofisinin rəhbəri tərəfindən söhbətlər və müxtəlif görüşlər təşkil olunur.

Əsas binanın 2-ci mərtəbəsində Germanistika İnstitutu və Avstriya kitabxanası fəaliyyət göstərir. Germnistika İnstitutunun rəhbəri professor Zieglinde Hartmann tələbələrə vaxtaşırı seminarlar təşkil edir, alman ədəbiyyatından nümunələri təqdim edir. İnstitut müxtəlif konfrans və simpoziumlar, almandilli ölkələrin milli bayramlarını keçirir ki, tələbələr də həmin tədbirlərin təşkilində yaxından iştirak edirlər.

İnstitutda artıq ənənə halını almış "Səfir saatı" layihəsi çərçivəsində Almaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirinin tələbələrlə görüşü təşkil olunur.

İki ildir ki, may ayının 31-də universitetimizdə "Germanistikfest" - "Germanistika bayramı" adlı tədbir keçirilir. Həmin tədbirdə universitetin həyətində simvolik olaraq qızılgül kolu əkilir. İnanırıq ki, bu, ənənə halını alacaq və universitetin həyətində bu bayramın şərəfinə qızılgül bağı salınacaq.

İngilis dilinin dünyada tüğyan etdiyi bir vaxtda Azərbaycanda Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrasının fəaliyyət göstərməsi heç də bu dilə bugünün rəğbətindən irəli gəlmir. Bu, XIX əsrin sonlarında və XX əsrin ikinci yarısına qədər alman dilinin ölkəmizdəki nüfuzunun nəticəsidir. Bildiyiniz kimi, alman dili Qafqazda, o cümlədən də Azərbaycan və Gürcüstanda ikinci "saray dili", aristokratların əcnəbi dili olmuşdur. Heç dəsadüfi deyil ki, XIX əsrin sonları və XX əsrin başlanğıcında Azərbaycan aydınları öz övladlarına xarici dil kimi alman dilini seçmiş, Azərbaycan Xalq Cümhuriyyəti, eləcə də Sovet Azərbaycanına rəhbərlik etmiş Nəriman Nərimanov gəncləri xaricdə təhsil almaq üçün məhz Almaniyaya göndərirdilər. Bu, o dövrdə Almaniyanın coğrafi-siyasi nüfuzundan irəli gəlirdi. Alman dilinin Azərbaycanda, o cümlədən keçmiş Sovetlər məkanında nüfuz qazanmasının bir səbəbi də Almaniyanın Birinci və İkinci Dünya müharibələrinin təkançısı olması ilə izah oluna bilər. Məhz bu səbəblərdən xarici dil dedikdə təsəvvürdə öncə alman dili yaranırdı və Azərbaycanda ilk xarici dil fakültəsinin dekanının alman dili mütəxəssisi olması, xarici dil üzrə ilk elmi müdafiənin alman dilçiliyinə təsadüf etməsi öz izahını məhz bunda tapır.

Bu gün ADU-nun alman dili müəllimləri Almaniya, Avstriya, İsveçrənin müxtəlif şəhərlərində ixtisasartırma və təkmilləşmə kurslarında iştirak edir, dilöyrətmə prosesində qazandıqları müasir metodları auditoriyalarda tətbiq edirlər. Universitetin rektoru, akademik Kamal Abdullanın diqqət və qayğısı sayəsində alman dili ADU-da özünün intibah dövrünü yaşayır. Müasir standartlara cavab verən Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrası müəllim və tələbələrin ixtiyarına verilmişdir.

***Xuraman ƏSGƏROVA,***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrasının müdiri***



## “Türk dünyasında ortaq əlifba və ünsiyyət dili”

# Elçin İbrahimovun kitabının təqdimatı



Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) fəaliyyət göstərən Türkoloji Mərkəzin təşkilatçılığı ilə Universitetin Filologiya fakültəsində ADU-nun Türk Dünyası Araşdırmaları Mərkəzinin müdiri, filologiya elmləri doktoru Elçin İbrahimovun “Türk dünyasında ortaq əlifba və ünsiyyət dili” kitabının təqdimatı və müzakirəsi keçirilib.

Təqdimatda ADPU-nun rektoru, professor Cəfər Cəfərov, beynəlxalq əlaqələr üzrə prorektor, professor Mahirə Hüseynova, Filologiya fakültəsinin dekanı, dosent Könül Həsənova, Türkoloji Mərkəzin direktoru, filologiya üzrə fəlsəfə doktoru Şəkər Məmmədova və mərkəzin əməkdaşları, Özbəkistanın Cizzak Dövlət Pedaqoji Universiteti və Chirchik Dövlət Universitetindən gələn nümayəndə heyəti, eləcə də, ADPU-nun digər struktur rəhbərləri, müxtəlif universitetlərdə çalışan türkoloqlar, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan professor Mahirə Hüseynova türkoloq-alim Elçin İbrahimovun elmi fəaliyyəti və əsərin əsas xüsusiyyətləri barədə məlumat verib, ümumtürk dünyasını birləşdirən ortaq əlifba və ünsiyyət dili problemlərinin türk xalqları arasında həllini tapmamış aktual məsələlərdən olduğunu bildirib. Professor nitqində tarix boyu müxtəlif xalqların təsirinə məruz qalan türklərin bir-birindən fərqli yazı sistemlərindən istifadə etdiyini söyləmiş, əsərin müxtəlif hissələrində əlifba mücadiləsi, onun müasir dövrdə vəziyyəti məsələsinin geniş təhlil edildiyini diqqətə çatdırıb.

Türkoloji Mərkəzin Türk ədəbiyyatı bölməsinin müdiri, professor Elman Quliyev çıxış edərək kitabda türklərin tarixən istifadə etdikləri əlifbalar haqqında dolğun məlumatların təqdim olunduğunu, Özbəkistan, Qırğızıstan, Qazaxıstan və Türkmənistanda ortaq türk əlifbasının tətbiqi məsələsinin müxtəlif aspektlərdən təhlilinin verildiyini qeyd edib.

1926-cı ildə Bakıda təşkil olunan I Türkoloji Qurultayın təsir dairəsinin elmi-nəzəri, tarixi aspektdən müəllif tərəfindən tədqiq olunduğu diqqətə çatdırılıb.

Çıxış edəm müəllif, filologiya elmləri doktoru, dosent Elçin İbrahimov təqdimat mərasiminin təşkilinə görə Pedaqoji Universitetin rəhbərliyinə və çıxış edən alimlərə isə fikirlərinə görə minnətdarlığı bildirib. O, əsərdə türk xalqları arasında əlifba islahatları istiqamətində görülən işlər, XX əsrin başlanğıcından indiyə qədər davam edən proseslərin araşdırıldığını bildirib, monoqrafiyanın bütün fəsilləri barədə ümumi məlumat verib.

Tədbir professor-müəllim heyətinin və tələbələrin müəllifə ünvanlandırdıqları suallar əsasında diskussiya formasında davam edib.

Yekun nitqi ilə çıxış edən professor Mahirə Hüseynova türkoloq-alim Elçin İbrahimovun müəllifi olduğu əsərin türk dünyasında ortaq əlifba, orfoqrafiya kimi aktual problemlərin araşdırılması və öyrənilməsi baxımından əhəmiyyətli mənbə olduğunu qeyd edib və müəllifə təşəkkürünü bildirib.

# Zaman Qarayevin “Xarqo” romanında multikultural dəyərlər

**dəyirmi masa**

Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu elmi-fəlsəfi qaynaqlarda, ədəbi-bədii əsərlərdə yaşayır. Bu kontekstdə tanınmış yazıçı Zaman Qarayevin məşhur “Xarqo” romanı multikultural mühit, çoxmədəniyyətlilik elementləri və dəyərləri ilə zəngin bədii nümunədir. Məhz bu xüsusiyyətlər nəzərə alınaraq aprelin 25-də Azərbaycan Dillər Universitetində Multikulturalizm Mərkəzi və “Azərbaycanşünaslıq” Elmi Mərkəzinin birgə təşkilatçılığı ilə “Zaman Qarayevin “Xarqo” romanında multikultural dəyərlər” mövzusunda dəyirmi masa keçirildi.

Multikulturalizm Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Loğman Rəşidzadə tədbirin əhəmiyyətindən danışaraq bildirdi ki, xalqımızın qəhrəmanlıq ənənələrini Azərbaycanın hüdudlarından uzaqlarda layiqincə yaşatmış Əhmədiyyə Cəbrayılovun igidlikləri fədakarlığın parlaq rəmzi, hünər və cəsarətin bariz nümunəsidir. Tanınmış yazıçı Zaman Qarayevin son dərəcə təsirli dillə qələmə aldığı məşhur “Xarqo” romanı isə Əhmədiyyə Cəbrayılovun misilsiz həyat və döyüş yolunu yüksək sənətkarlıqla bədiiləşdirir. Təsadüfi deyil ki, roman nəşr olunduğu illərdə və ondan sonrakı onilliklərdə xalq tərəfindən sevilib, əl-əl gəzərək oxucuların stolüstü kitabına çevrilib.

Zaman Qarayevin ədəbi və elmi fəaliyyət yoluna nəzər salan ADU-nun Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin direktoru Cəmilə Əliyeva bildirilib ki, yazıçı “Xarqo”, “Əlincə qalası”, “Kürü keçdilər”, “İldırımlı diyar” kimi sanballı romanların, onlarla povestin və yüzlərlə hekayənin müəllifidir. O, həmçinin, yüzdən çox elmi, bədii, ictimai-siyasi kitabın redaktoru olmuş, radio dalğalarında səslənən bir sıra verilişlərin, onlarla səhnələşdirilmiş radiopyeslərin müəllifidir. Zaman Qarayev 1976-cı ildə “Süleyman Rəhimovun povestləri” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi alıb. Dahi mütəfəkkir Mirzə Fətəli Axundzadənin irsi üzərində ciddi araşdırmalar aparan tanınmış alim-yazıçı Zaman Qarayev Mirzə Fətəlinin indiyədək elmə məlum olmayan “Səfərdə” və “İran şahının Qafqaza səyahəti” povestlərini aşkara çıxarıb.

“Xarqo” romanını multikulturalizm və tolerantlıq prizmasından nəzərdən keçirən Fransız dili və Mədəniyyəti Mərkəzinin müdiri, professor Əsgər Zeynalov, “Azərbaycanşünaslıq” Elmi Mərkəzinin baş elmi işçisi, dosent Ülviyyə Rəhimova, Fransız dilinin fonetikası və qrammatikası kafedrasının müdiri, professor Ülfət İbrahim məruzələrlə çıxış ediblər. Bildirilib ki, üstündən onilliklər ötməsinə baxmayaraq, “Xarqo” romanında yaşayan multikultural əhval, tolerant durum çoxşaxəli təzahür formaları ilə bu gün də aktuallığını qoruyur. Əsərdə lüzumsuz təfərrüatlara yer verilməməsi, romanın yüksək bədii xüsusiyyətləri, dil və təsvirlərdə yığcamlıq romanın oxunaqlığını təmin edir.




“Xarqo” romanında multikulturalizm mövzusunun geniş şəkildə əks olunduğunu vurğulayan məruzəçilər azərbaycanlı Əhmədiyyə Cəbrayılov, fransız Bessinq və alman Ferdinandın yaxın dostluğunu ümumbəşəri dəyərlərin, multikulturalizmin önəmini artırdığını qeyd ediblər. Romanda milli-mədəni rəngarənglik mühiti fonunda müxtəlif millətlərdən olan insanlar faşizmə qarşı mübarizədə birləşsə də, əsərdə ermənilərin dönüklüyü, ikiüzlü və mənfur xisləti də tutarlı faktlarla qabardılır. Yazıçı romanda partizan hərəkatını təsvir etməklə yanaşı, Fransanın Viktor Hüqo, Onore de Balzak, Emil Zolya kimi dahi şəxsiyyətlərini də unutmur. Əsərdə M.F.Axundzadənin “Misyo Jordan” komediyasının xatırlanması isə Azərbaycan və Fransa mədəniyyətləri arasında əlaqələrin tarixi köklərinə işarə edir.

Tədbirin keçirilməsinə görə təşəkkürünü bildirən əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun övladları – Cavanşir və Almaz Cəbrayılovlar atalarının keçdiyi şərəfli döyüş yolundan, müharibədən sonrakı həyatından maraqlı məlumatları bölüşdülər. “Xarqo” romanının bədii məziyyətlərini vurğulayan Cavanşir Cəbrayılov Zaman Qarayevin istedadlı yazıçı olmaqla yanaşı, son dərəcə cəsarətli qələm sahibi olduğunu diqqətə çatdırdı: “Atam Əhmədiyyə Cəbrayılov II Dünya müharibəsindən qəhrəman kimi Vətənə qayıtdıqdan sonra çox böyük təqiblərlə üzləşdi, “KQB”nin adamları atamı çox incidir, ona işgəncələr verirdilər. O vaxtlar Şəkidə hamı ailəmizdən üz döndərmişdi, hətta ən yaxın qohumlarımız bizə gəlməyə qorxurdular. Belə çətin vəziyyətdə yazıçı Zaman Qarayevin bizə gəlib atam haqqında kitab yazması, onun göstərdiyi bu cəsarət, qorxmazlıq, yazıçı hünəri bu gün də məni heyran edir.

Zaman Qarayev “Xarqo” romanını yazdıqdan sonra əsərin nəşri üçün çox böyük çətinliklər çəkdi. Heç bir dərgi, nəşriyyat romanı nəşr etdirmək istəmir, redaksiyaların məsul şəxsləri min bir bəhanə ilə çapdan imtina edirdilər. Lakin Zaman Qarayev son dərəcə dəyanət göstərdi, öz haqlı mövqeyini inamla müdafiə etdi.

Nəhayət, romanın dərc olunması ilə bağlı yaranmış çətinliyi Xalq yazıçısı Əbülhəsən aradan qaldırdı. O, əsəri oxuyaraq çox bəyəndi və “Xarqo” onun rəyi ilə 1966-cı ildə “Azərbaycan” jurnalında, bir il sonra isə ayrıca kitab kimi “Gənclik” nəşriyyatında böyük tirajla çap olundu. Bu maraqlı bədii nümunə ədəbi mühitdə geniş rezonans doğurdu, ümumtəhsil məktəblərinin ədəbiyyat dərsliklərinə daxil edildi. Roman Zaman Qarayevi tez bir zamanda məşhurlaşdırdı, atama olan təqiblər aradan qaldırıldı. Həmin o ağır illərdə Zaman Qarayevin göstərdiyi hünəri, misilsiz xidmətləri ailəmiz heç vaxt unutmayacaq. Mən bu əqidəli, istedadlı Azərbaycan yazıçısının cəsarəti, müqəddəs ruhu qarşısında baş əyirəm”.

Tədbirin sonunda Zaman Qarayevin övladı, “Poliqlot” qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Sadiq Zaman tədbirin keçirilməsində əməyi keçən hər kəsə yazıçının ailəsi adından dərin təşəkkürünü bildirdi, Əhmədiyyə Cəbrayılov, “Xarqo” kitabının nəşri ilə bağlı maraqlı təəssüratlarını bölüşdü.

***Sadiq ZAMAN,***
***filologiya üzrə fəlsəfə doktoru***

# POLİQLOT

№ 3(257) aprel 2024 Təsisçi: Azərbaycan Dillər Universiteti www.adu.edu.az


## Kitab rəfi

## Kamal Abdullanın şeirləri alman, fransız, ingilis və ispan dillərində




**Xalq yazıçısı Kamal Abdullanın müxtəlif xarici dillərə tərcümə olunmuş "Sən çətin tapasan axtardığını" adlı şeirlər kitabı çap olunub.**

Kitabda Kamal Abdullanın müxtəlif illərdə yazdığı şeirlərin alman, fransız, ingilis və ispan dillərinə tərcümələri təqdim olunub. Şeirləri almancaya Yusif Savalan, fransızcaya Mətanət Əhmədova, ingiliscəyə Vaqif Qəmbər, Fialə Abdullayeva, ispancaya Hüseynağa Aygünlü tərcümə ediblər.

Kitabçanın tərtibçisi Yusif Savalan, rəyçisi filolologiya elmləri doktoru, professor Şahin Xəlili, redaktoru isə dosent Fialə Abdullayevadır. Kitab "Elm və təhsil" nəşriyyatında çap olunub.

Yeni nəşrin "Tərtibçilərdən" hissəsində yazılıb: "Kamal Abdulla Azərbaycan dilçiliyində, ədəbiyyatşünaslığında, nəsrində, dramaturgiyasında unudulmaz xidmətləri ilə seçilən ustad alim, yazıçı, dramaturqdur. Onun poeziya sahəsində qələm təcrübəsi – şeir və nəğmələri də oxucu ürəyini riqqətə gətirir. Dünya xalqlarının ayrı-ayrı dillərinə tərcümə olunmuş bu şeirlər onun həm də gözəl şair olduğundan xəbər verir".

## ADU-nun dosentinin "Sözün sirdaşı" adlı kitabı çap olunub

Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasının dosenti Oqtay Abbasın poeziyada öz dəst-xətti ilə seçilən tanınmış şair, publisist Ağacəfər Həsənlinin yaradıcılığına həsr olunmuş "Sözün sirdaşı" adlı kitabı çap olunub.

Kitabda şairin keçdiyi həyat yolundan bəzi məqamlar oxuculara çatdırılır, şeirlərinin, poemalarının, çoxsaylı publisistikasının özünəməxsus səciyyəvi cəhətləri şərhini tapır. Müəlliflə Ağacəfərin uzun illərin sınaqlarından çıxmış dostluq münasibətləri ilə bağlı kövrək xatirələr, Ağacəfərin bir insan kimi bəzi fərdi xüsusiyyətləri, zəngin xatirələrdən yaranmış təəssüratların bir qismi kitabda yer alıb.

Qeyd edək ki, müəllif kitabı A.Həsənlinin 70 illiyinə həsr edib.




## ADU-nun əməkdaşının kitab təqdimatı

Azərbaycan Dillər Universitetinin Linqvokulturologiya kafedrasının əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Mahirə Hacıyevanın "Transcending The Boundaries. A Brief Review of Pakistani English Literature" və "Mədəni sərhədlərin qovşağında bədii təfəkkür" kitablarının, bədii tərcümələrinin - Bapsi Sidvanın "Buzlu nabat satan" və Möhsin Həmidin "Könülsüz Fundamentalist" əsərlərinin təntənəli təqdimat mərasimi keçirilib.

Pakistan İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi və Pakistan Azərbaycan İqtisadi Əməkdaşlıq Palatasının təşkilatçılığı ilə 2 may 2024-cü il keçirilmiş tədbirdə Azərbaycan Dillər Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Jalə Qəribova, Ümumi işlər üzrə prorektoru, dosent Vüqar Mehrabov, Təhsil 1 fakültəsinin dekanı professor Fikrət Cahangirov, Təhsil 2 fakültəsinin dekanı, dosent Salman Nuriyev, Linqvokulturologiya kafedrasının müdiri, dosent Vüsalə Ağabəyli, həmin kafedranın müəllimləri və universitetin əməkdaşları, o cümlədən elmi-ictimai xadimlər iştirak ediblər.

Tədbirin fəxri qonaqları akademik Rafel Hüseynov, Pakistan İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri cənab Bilal Hayee, Pakistan Milli Assambleyası sədrinin müavini Seyid Qulam Mustafa Şah, senator Müşahid Hüseyn Seyid, Pakistan İslam Respublikasından "VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu"nda iştirak etmək üçün Bakıda səfərdə olan nümayəndə heyətinin üzvləri tədbirdə çıxış edərək iki ölkə arasındakı dostluq və əməkdaşlıq münasibətləri və bu münasibətlərin inkişafında bənzər tədbirlərin rolundan danışıblar.

## ADU-da "Mübariz" filminin təqdimatı



Azərbaycan Dillər Universitetində Azərbaycanın milli qəhrəmanı Mübariz Qurbanova həsr olunmuş tammetrajlı "Mübariz" bədii filminin təqdimatı keçirilib. Tədbirdə universitetin əməkdaşları və tələbələr iştirak ediblər.

AZTV və Nicat Mənalının ssenarisi və baş pradüsserliyi (Munis Praduction şirkəti) ilə ərsəyə gətirilmiş filmin quruluşçu rejissoru Natiq Novruzovdur. Filmdə Mübariz İbrahimovu canlandıran baş rolun ifaçısı isə Xalq artisti Şamil Süleymanova həvalə olunub.

Tədbiri giriş sözü ilə universitetin Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının dosenti Qorxmaz Mustafayev açıb.

Munis Prodicton-un nümayəndəsi Emin Yaqubzadə filmin hazırlanması prosesindən danışıb. O, çəkilişlərin qəhrəmanın doğulduğu doğma Biləsuvar rayonunda və ata evində, döyüşüb şəhadətə qovuşduğu Tərtər rayonunda yerləşən hərbi mövqedə aparıldığını qeyd edib.

Tədbir filmin nümayişi ilə davam edib.

Qeyd edək ki, filmdə milli qəhrəmanın uşaqlıq dövründən tutmuş sonuncu döyüşünü əhatə edən hadisələrdən bəhs olunur.

## Tələbəmiz erməni rəqibini məğlub edərək qalib olub



Azərbaycan Dillər Universitetinin BMR fakültəsinin 363a qrup tələbəsi Anar Məmmədov 19 aprel tarixində Türkiyədə keçirilən qaydasız döyüş üzrə professional turnirdə iştirak edərək qalib olub.

MMA-nın əsas liqalarından olan BFC və TFN-nin birgə təşkil etdiyi professional turnirin final mərhələsində erməni rəqibi Artur Albertyanı məğlub edən Anar Məmmədov I yerə layiq görülüb.

Aprelin 24-də rektoryanı şuranın iclasında ADU-nun rektoru, akademik Kamal Abdulla Anar Məmmədovu qələbəsi münasibətilə təbrik edib, ona dərslərində və peşəkar idman karyerasında uğurlar arzulayıb.

Qeyd edək ki, Anar Məmmədov 2 qat dünya çempionu, dünya kubokunun qalibi, Avrasiya çempionu, Avrasiya kubokunun qalibi, 6 qat Respublika çempionu, 3 dəfə Respublika kubokunun qalibidir. Onun professional döyüş rekordu məğlubiyyətsiz 3 qələbədən ibarətdir.


Baş redaktor: Sadiq ZAMAN

*Redaksiya heyəti:*
Misgər Məmmədov
Nərgiz Qurbanlı
Nigar Zeynalova
Ayna Əliyeva
İnarə Abdullayeva
Məryəm Şahəlizadə
Ceyran Əliyeva
Mədinə Əhmədova

Ünvan: Az 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.
Əlaqə telefonları: 440-29-31; 441-22-79

Qəzet "POLİQLOT"un redaksiyasında yığılıb, səhifələnib və "Azərbaycan Nəşriyyatı" MMC-də ofset üsulu ilə çap olunub.

Qeydiyyat № 720
Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
Qeydiyyat №-si 1557
*Qiyməti 60 qəpik*
Tirajı: 1000
Sifariş: 1046